KÜRD DÎPLOMAT
www.Diplomata-kurdi.com
№ 02 (150), 16-22 yanvar, Çilîya paşîn - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti, Hêjaye 40 qəpik

Kürd xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Səbahəddin Eloğlu



## İlham Əliyev Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olmuşdur



## Serokê Herêma Kurdistanê pêşwaziya Cîgirê Wezîrê Derveyê Emerîka kir

## Mən nə üçün vuruşdum? Səh. 9

## Kiçik Asiyanın qırmızı mozaikası Səh. 4


Səh. 2

### QANLI YANVAR - AZADLIQ DASTANI


Səh. 11

### Sebahat Tuncel: Enqere êdî bûye navenda faşîzmê!


Səh. 3

### BDP həmsədri: Kürd xalqının ana dilində təhsil alıb-almayacağına baş qərargah rəisi qərar verə bilməz


Səh. 13

### Нечирван Барзани не ставит условий для своего возвращения на пост главы курдского правительства


Səh. 11

### Aysel Tûglûk banga berxwedanê li gelê Kurd kir!


Səh. 6

### EZ KURDİM


Səh. 6

### BENZİN KOKULU HAYALİNİZ


Səh. 4

### Hemik û Sînem

## Baş redaktordan

**Hərdən biz ata-babalarımızın nəsihətlərini unuduruq, özü də tez unuduruq. Babam Kürd Musa, ömrünün sonuna- yəni 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata keçirəcəklər.**

# QANLI YANVAR - AZADLIQ DASTANI



Mən ona qədər erməni-müsəlman davası görmüşəm. "İtlə yoldaş olanın zopası əlində olmalıdır" deyə bizə nəsihət verərdi. İllər keçdikcə bu sözlərin müdrikliyinin şahidi olduq. Şovinistlərin fitvası ilə erməni daşnakları Azərbaycanın əzəli yerləri olan Dağlıq Qarabağ torpaqlarının işğalına başladı. Və düz 22 il əvvəl -1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının başına gətirilən faciələrin ən dəhşətlisi gətirildi. Vətənin istiqlalı və milli azadlığı uğrunda mübarizəyə qalxan, qəlbindəki vətən sevgisindən başqa heç bir silahı olmayan əliyalın, günahsız insanlar, təpədən dırnağa ən müasir silahlarla silahlanmış, azğın erməni daşnaklarının və Sovet imperiyası qoşunlarının amansız vəhşiliyinin qurbanı oldular. güllü-çiçəkli Bakımızın qara asfalt yolları, xalqımızın azadlığı uğrunda mübarizəyə qalxan, igid oğlan və qızlarımızın qanı ilə boyandı. Xalqımız öz suverenliyi uğrunda mübarizədə ilk şəhidlərini verdi. Paytaxtın Azadlıq meydanından Şəhidlər xiyabanına qədər qırmızı qərənfillərlə şəhidlərə misli görünməmiş "çələng" hörüldü, matəm çələngi. Onlar öz ölümləri ilə, əbədi ölməzlik qazandılar. Şəhidlər xiyabanı vətən yolunda canlarını fəda vermiş oğul və qızlarımız üçün əbədi mənzil oldu. Al-qırmızı qərənfillər Şəhidlər Xiyabanının rəmzinə çevrildi. Bünövrəsi qanla qoyulan bir quruluşun sonu, qanla da bitməli idi. Belə ki, 1986-cı ildə Alma-Atada kazakların qırğını, 1988-ci ildə Fərqanə hadisələri, 1989-cu ilin aprelində Tbilisi qətliyamları, 1990-cı ilin yanvarında Bakıda, 1991-ci ildə Vilnus şəhərində qanlı qırğınlar törədildi. Təəssüf ki, Moskva və Bakıda oturan satqın rəhbərlərin hazırladığı cinayətkar planlar həyata keçirildi. Bakı əhalisi dəhşətli səhnə ilə üz-üzə qaldı. Sinəsi güllələrdən deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpədici nalələrin sədası ərşə qalxırdı. 20 Yanvarla açılan şəhərdə 130-dan artıq şəhid, 700-dən artıq yaralı qana boyandı. Bu hadisələri gizlətməyə çalışan dövlət rəhbərlərinin əksinə olaraq, Moskvada yaşayan və işləyən Ulu Öndər, Heydər Əliyev cənabları etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxması üçün bəyanatla çıxış etdi. Bu, tək siyasi partiya üzvünün deyil, uzun müddət Sovet İttifaqının aparıcı rəhbərlərindən biri olmuş, bir şərəfli şəxsiyyətin cəsarətli hərəkəti idi. Xalq heç vaxt yanılmır, ona görə də gec də olsa, Azərbaycanın xilaskarını Bakıya gətirdi və hərc-mərcliyə son qoyuldu. Məhz Prezident Heydər Əliyevin tarixi xidmətidir ki, 20 Yanvar qırğını Ümummilli faciə səviyyəsinə qaldırıldı və ona hüquqi-siyasi qiymət verildi. Prezident Heydər Əliyev şəhidlərin ruhunun yad edilməsinə həmişə böyük diqqət yetirirdi. Onun şəxsən şəhidlər üçün abidə kompleksinin tikdirməsinə nəzarət etməsi, xüsusi qiymətləndirilməlidir. Bu xalqın gələcəyi üçün, tarixin qan yaddaşı üçün atılan mühüm bir addımdır. İnanırıq ki, 20 Yanvar qəhrəmanları heç vaxt unudulmayacaq, Şəhidlər Xiyabanı xalqımızın inanc, ziyarətgahı olacaqdır. Ancaq təsəlli ondadır ki, xalqımız müstəqildir. Azərbaycan xalqı öz müdrik lideri Ulu Öndər, Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyini əldə etmişdir. Xalq yaxşı bilir ki, indi Ulu Öndər, Heydər Əliyev siyasətini inamla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev cənabları, vətənimizin və xalqımızın qarantıdır. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin!

***Tahir SÜLEYMAN***

***20** Yanvar tariximizdə həm faciə, həm də qəhrəmanlıq səhifəsidir. Sovet imperiyasının qaniçənliyi bütün çılpaqlığı ilə təsdiqləndi 20 Yanvarda. Eyni zamanda, xalqımızın azadlıq uğrunda mübarizliyi özünü göstərdi. Xalqların azadlıq istəklərini boğmaqda sınanmış sovet metodları Azərbaycanda daşa çırpıldı.*

***Tarix göstərir ki, azadlıq, haqq-ədalət istəyən xalqları susdurmaq üçün imperiya nəyin bahasına olursa-olsun, bu haqq amallara müxtəlif don geyindirir, emissarlarını göndərib çaxnaşma salır, sonra da insanları amansızcasına qırır. Bu zaman təbii ki, yerli qullarından, manqurtlaşdırdıqları adamlardan istifadə edirdilər. Azərbaycanda xalq hərəkatını boğmaq üçün imperiya bəhanə axtarırdı.***



# Azadlıq şəhidləri

İmperiya Bakıya qoşun yeritməkdə maraqlıydı və bu istəyinə nail olmaq üçün hər cür bəhanə tapacaqdı. Həmin gecə küçə və meydanlarda, həttа bir nəfər olmasaydı belə, xüsusi təlim keçmiş qoşun hissələri paytaxtımıza daxil olacaqdı. Ancaq qırğınların sayını minimuma endirmək olardı. Bu şərtlə ki, xalq hərəkatına rəhbərlik edənlər ağıllı olaydılar. Hakimiyyət üçün yox, xalqın taleyi üçün düşünəydilər. Çox təəssüf ki, belə düşüncəli biri yox idi. Hərəsi bir məzhəbə qulluq edən "liderlər" xalqı dünyanın ən müasir zirehli döyüş maşınlarının, nəşələndirilmiş, xüsusi təlim keçmiş qoşunun qarşısına göndərib, özləri isə qaçıb gizləndilər.

Bakı SSRİ-nin ən strateji şəhərlərindən biri idi. Odur ki, burada kifayət qədər qoşun növləri saxlanılırdı. Bu qoşun birləşmələri SSRİ-yə ola biləcək ən güclü xarici müdaxilənin qarşısını almağa qadir idi. Deməli, Bakıda mitinqçiləri təcrid etmək çox asan məsələydi. Ancaq M.Qorbaçov başqa yol seçdi. O, Bakıya saqqallıları göndərdi. "Saqqallı" deməklə, Bakıya göndərilən hərbçilərin vəhşiliyini diqqətə çatdırmaq niyyətində deyiləm. Faciədən sonra iki gün mən bu saqqallıları gördüm. Yanvarın 20-də "Salyan kazarması"nın qarşısında sağa-sola şütüyən tankların üstündə əliavtomatlı oturan "hərbçilər" 35-40 yaşlarında adamlar idilər.

Təbii ki, Ermənistanda yaşayan azərbaycanlılar dədə-baba torpaqlarından qovulanda həmin respublikanın rəhbərliyi belə bir addım atmadı, əksinə, deyirdilər ki, azərbaycanlılar burada dinc oturmurlar, erməniləri qətlə yetirirlər. Bunu təsdiq etmək də çətin deyildi. 5-6 dığanı öldürüb deyirdilər ki, azərbaycanlılar qətlə yetiriblər. Bunlar sınanmış üsullardır.

Bəli, Ə.Vəzirov nə Dağlıq Qarabağda öldürülən, nə çöllərə səpələnən azərbaycanlılardan, nə də elə Bakının özündə təxribatlar törədən ermənilərdən yazırdı. Azərbaycanlıların isə öz haqlarını tələb etmələri onlar üçün ekstremizm idi.

Ermənistandan azərbaycanlılar son nəfərinə qədər qovulmuşdular. Özü də heç biri evindən bir dəst paltar da götürə bilməmişdi. Xankəndindən də eyni qaydada. Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan kəndlər yandırılır, talan edilir, insanlar vəhşicəsinə qətlə yetirilir, diri-diri yandırılırdılar. Bizim bivec rəhbərlər isə başqa hava çalırdılar. Yalvar-yaxarla Azərbaycandan köçüb getmiş erməniləri geri qaytarır, hər cür qayğı göstərir, başlarına sığal çəkirdilər.

Bəli, belə idi o dövr. Bir dığanın xətirinə neçə adamı desən, qurban verməyə hazır olanlar vardı. Bu da ermənilərin əl-qolunu açırdı. Digər tərəfdən, xalq hərəkatını çirkin məcralara yönəltmək üçün Moskva AXC sıralarına öz adamlarını yerləşdirmişdi. Onlar qan-qan deyirdilər. Dağıtmaqdan, qırmaqdan danışırdılar. Moskvaya da bu lazım idi.

İmperiyanın Azərbaycandakı siyasətinin həyata keçməsinə birbaşa rəhbərlik edən Viktor Polyaniçko Ə.Vəzirovdan 17 gün sonra V.Bakatinə müraciət etdi. Amma birinci katibdən daha insaflı idi: "21 avqust 1989-cu il. SSRİ daxili işlər naziri V.Bakatinə. Son günlərdə respublikada, xüsusilə Bakıda vəziyyət gərginləşmişdir. İctimai asayişi və təhlükəsizliyi təmin etmək məqsədilə daxili qoşunların 1500-2000 əsgərini Bakı şəhərinə göndərməyinizi xahiş edirəm. Viktor Polyaniçko".

Moskva isə tələsmirdi. Bunlar hələ az idi. Aranı bir az da qızışdırmalıydılar. Beş-altı erməni öldürülməliydi. Üstəlik, bu adamlar Moskvadan kömək istəyənlər partiya rəhbərləri idilər. Hökumət rəhbəri də qoşulmalıydı bu çağırışa. Nəhayət, bu da oldu: "11 yanvar 1990-cı il. SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkova. İctimai asayişin mühafizəsini gücləndirmək və baş verə biləcək millətlərarası konfliktin qarşısını almaq məqsədilə Azərbaycan SSR-ə SSRİ Daxili İşlər Nazirliyinin 7 min nəfərlik daxili qoşun kontingentini göndərməyinizi xahiş edirəm. Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov".

Bundan iki gün sonra "Alfa" qrupu Bakıda ermənilər yaşayan mənzillərə hücumlar təşkil etdi. Bir həftə sonra isə Bakını qan çanağına döndərdilər. Daha iki gün sonra A.Mütəllibov göstərdiyi xidmətlərin əvəzini aldı. Moskva onu Azərbaycana rəhbər təyin etdi. Xalqının qanı üstündən keçib hakimiyyətə gələn heç vaxt Vətəni üçün heç nə edə bilməz. Əksinə, daha böyük bəlalara salar. Necə ki, A.Mütəllibov saldı.

20 Yanvar faciəsini törədib əlləri qana batmış qaniçənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verəcək və öz layiqli cəzalarını alacaqlar.



**Nəriman Əyyub**

## QABOY AĞLAYIR

Bu gün matəm günü, Qaboy ağlayır,
Kamilin çaldığı yandırır bizi.
O qəmgin naləsi ürək dağlayır,
Bakı küçələrin san qan dənizi.

Nə qədər qırılıb burda ərənlər,
Heç unuda bilməz oinu görənlər.
Gedib ata-ana, övlad, neçə nər,
Görəndə qırıldı analar dizi.

Dözmədi İlhamın ayrılığına,
Fərizə zəhərlə qəst etdi cana.
Fəryadla qışqırdı o qoşa ana,
Çökdü qarşısında onların dizi.

Gəlir xiyabana xalq dəstə-dəstə,
Habil kamançada çalır şikəstə.
Dözə bilməyirik bu ağır qəstə,
Ədalət yanıqlı dindirir sazı.

Fəqət təsəllilər var ürəyimdə,
Qələmimlə gündə şəhidəm mən də.
Sevinirəm azadlığı görəndə,
Dərdimi deyirəm, yazıram yazı.

# BDP həmsədri: Kürd xalqının ana dilində təhsil alıb-almayacağına baş qərargah rəisi qərar verə bilməz



BDP həmsədri Selahəddin Demirtaş, Baş nazir Ərdoğanın onun haqqında dediyi sərt sözlərə cavab verib.

SalamNews-un "Doğan" agentliyinə istinadla verdiyi xəbərə görə, Demirtaş deyib: "Baş qərargah rəisi və Baş nazir 35 gəncin qətlə yetirilməsində cavabdehdir. Əsas məsələ budur. Bunun hesabını verməlidirlər".

Diyarbəkirdə mətbuat konfransı təşkil edən Selahəddin Demirtaş Uludərədə qətliam törədildiyini iddia edib: "AKP sədrinin partiyamıza və şəxsən mənə ünvanlanan təhqirlərinə eyni üslubla cavab verməyəcəm. Heç bir şey olmamış kimi davrana bilməzlər. 19-u uşaq olmaqla 35 nəfəri öldürüblər. Reallıq budur. Gündəm və həqiqət budur. Mənim dediklərim təhqir deyil. Kürd xalqının ana dilində təhsil alıb-almayacağına baş qərargah rəisi qərar verə bilməz".

Prokurorların baş qərargah rəisi və yüzlərlə generala "terrorçu" dediyini iddia edən Demirtaş vurğulayıb: "Baş qərargah rəisinə onbaşı deyəndə niyə xətirlərinə dəyir?".

# TÜRKİYƏDƏ 32 KÜRD HƏBS OLUNUB

Türkiyə polisi kürd millətçi hərəkatına qarşı əməliyyat çərçivəsində 17 şəhərdə yüzdən artıq ev və ofisdə reyd keçirib.

Azı 32 adam həbs olunub. Reydlər Türkiyə hakimiyyətinin kürd separatçı qrupu PKK-nın tərəfdarlarını təqib etmək kampaniyasının bir hissəsidir.

Yüzlərlə mülki şəxs ötən il ərzində anti-terrorizm qanunları ilə saxlanılıb. Onların arasında hüquqşünaslar, insan haqları fəalları və jurnalistlər var.

BBC müxbiri Conatan Hed xəbər verir ki, Türkiyə dövləti kürd millətçi hərəkatına qarşı iki paralel əməliyyat həyata keçirir.

Cənub-şərqdəki dağlarda Türkiyə silahlı qüvvələri Kürd İşçi Partiyası - PKK silahlıları ilə vuruşmaqda davam edir.

Ancaq urban ərazilərdə, yüzlərlə və minlərlə mülki şəxs polis reydləri zamanı həbsə alınıb.

Tutulanlar o qədər çox olub ki, onların sayı barədə dəqiq məlumat yoxdur.

Onların arasında vəkillər, insan haqları fəalları və jurnalistlər var - Türkiyə indi bir çox ölkələrlə müqayisədə daha çox jurnalisti həbsdə olan ölkədir.




Onlar ölkənin anti-terrorizm qanunları ilə həbs olunur, bu qanunlara görə, PKK-a rəğbətlə nə isə demək və ya yazmaq cinayət hesab olunur.

Son reydlərdə evinə polisin basqın etdiklərindən biri kürd siyasətçisi Leyla Zanadır. O, parlament daxilində kürd dilində danışdığı üçün həbsdə artıq 10 ilini keçirib.

Həbs olunanlardan çoxunun KCK kimi tanınan hərəkatla əlaqələri var. Hökumət həmin qrupu separatçıları müdafiə etməkdə günahlandırır.

Ancaq həbslərdə anti-terrorizm qanunlarının istifadəsi geniş şəkildə tənqid olunur. Bu yaxınlarda Avropa Şurasının bu barədə hesabatında deyilirdi ki, bu həbslər söz azadlığına qorxulu təsir göstərir.

Yazıçılardan hökuməti dəstəkləyən biri Türkiyənin ədliyyə sistemini belə təsviri edib: "Türkiyənin həbs aparatı ağlını itirib".

# Uludərədə 35 kürd mənşəli VƏTƏNDAŞIMIZA tələ quraraq öldürdən xain təşkilatın yeni bir təxribat hazırlığında olduğu ortaya çıxdı



Dünən əvvəl Cudi dağında əməliyyat xəbərləri yayıldı sonra canlı qalxan olmaq istəyənlər dağa çıxmağa cəhd etdi. Ancaq Valilik axşam saatlarında açıqladı: Bölgədə əməliyyat yox ...

Cudi dağında geniş diametrli bir əməliyyat olduğunu və əməliyyatda kimyəvi silahlar istifadə yayaraq ictimaiyyət meydana gətirməyə çalışan təşkilatın yalanı Şırnak Vali'liğinin şərhiylə deşifre oldu. Gerçək xarici söz-söhbətlərin xüsusilə ictimai mediada sürətlə yayılması buna əlavə olaraq müxtəlif Xəbər mecralarında da yer tapması üzərinə, Şırnak Qubernatorluğundan mövzuya bağlı bir şərh gəldi. Axşam saatlarında edilən yazılı şərhdə, Valilik əməliyyat xəbərlərinin doğru olmadığını xatırladtı və təxribata diqqət çəkdi.

**ŞIRNAK Valiliyinin AÇIQLAMASI**

"Bölgəmizdə xaos mühiti meydana gətirməyi məqsəd qoyan qaranlıq odaklarca xidmət edildiyi qiymətləndirilən 'Cudi dağında Əməliyyat' başlığı altında verilən xəbərlər həqiqətləri əks etdirmir. Hali hazırda xatırlanan bölgədə hər hansı bir əməliyyat yürütülmemektedir. İctimaiyyətə hörmət ilə duyurulur. "

Bu vaxt separatçı təşkilata yaxın Xəbər orqanlarında iştirak edən bəzi xəbərlərdən, BDP'lilerin sabah Cudi dağına doğru yürüşə keçəcəyi bunun üçün tərəfdar toplama səyində olduqları öğrenilmişti. Şırnak Valiliği'nin şərhi bu provokatif cəhdi sonlandırma məzmununda əhəmiyyətli bir məlumat olaraq qiymətləndirildi.




## Danimarka PKK-nın kanalını bağlamayacaq

Danimarkada Kopenhagen məhkəməsi Türkiyə hökumətinin və yerli prokurorluğun tələblərinə baxmayaraq, "Roj TV" adlı kürd kanalından lisenziyanı geri almayıb, sadəcə cərimələməklə kifayətlənib

"Mərkəz" xəbər verir ki, kanalın cərimələri haqda xarici mətbuatlarda müxtəlif rəqəmlər yazılıb. "Röyters"in məlumatına görə, məhkəmə kanalı 22 min dollar cərimələyib. Hürriyət qəzetinin yazdığına görə, 400 min avro, DW-WORLD-ün xəbərinə görə isə, cərimənin məbləği 700 min avro təşkil edir. Peyk vasitəsilə yayımlanan "Roj TV" Kürd Fəhlə Partiyası (KFP) tərəfindən maaliyyələşdirilir. KFP Türkiyədə, ABŞ-da və Avropa Birliyində terror təşkilatı kimi tanınır. Danimarka peyk vasitəsilə yayımlanmaq üçün "Roj TV"-yə 2004-cü ildə lisenziya verib. Danimarkadan 68 ölkəyə yayımlanan kanalın krallıq ərazisində şəxsi telestudiyası mövcud deyil. Məhkəmənin saytında telekanalın aid olduğu şirkətlərin 40 cərimə, təxminən 11 min dollar ödəməli olduğu yazılıb.

Türkiyə məhkəmənin qərarı ilə razılaşmayıb. Belə ki, Türkiyə Parlamentinin spikeri Cəmil Çiçək kanalın terroru dəstəklədiyini vurğulayıb. Prokuror isə qərarı apelyasiya məhkəməsinə verəcəyini deyib.

## İraq İçişləri Nazirliyi, Kürd Rəhbərliyindən Tarık Əl Haşimini təslim etməsini istədi



İraqın yarı rəsmi kanalı olan Əl İraqıya televiziyasının xəbərində, "İçişləri Nazirliyinin özərk Kürd rəhbərliyindəki İçişləri Nazirliyindən, haqqlarında həbs qərarı çıxan Əl Haşimi və bərabərindəki 14 nəfərin həmən həbs olunub mühakiməyə təslim edilməsini istədiyi" ifadə edildi.

İraq Yüksək Mühakimə Şurası, Əl Haşiminin həbs olunan bəzi qorumalarının verdikləri ifadələrdə şiddət hərəkətlərini Əl Haşiminin əmrləri istiqamətində etdiklərini dilə gətirməsindən sonra 19 Aralıq/dekabrda Əl Haşimi və bərabərindəki 14 nəfər haqqında Konstitusiyanın terrorla əlaqədar 4. maddəsinə görə həbs qərarı vermişdi.

## Türkiyənin iki əhəmiyyətli universitetində kürd dili və ədəbiyyatı bölməsi açılacaq

Türkiyənin iki əhəmiyyətli universitetində kürd dili və ədəbiyyatı bölməsi açılacaq Ankara və İstanbul universitetlərinin ədəbiyyat fakültələrində «kürd dili və ədəbiyyatı» hissəsinin açılması daha məqsədəuyğun görülüb Türkiyənin iki əhəmiyyətli universitetində kürd dili və ədəbiyyatı bölməsi açılacaq. ANS PRESS-in Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bir çox universitetlərdə bu bölmənin açılması istənilsə də, Ankara və İstanbul universitetlərinin ədəbiyyat fakültələrində «kürd dili və ədəbiyyatı» hissəsinin açılması daha məqsədəuyğun görülüb. Mardin və Diyarbakır Dəclə universitetləri də bununla bağlı təkliflər irəli sürüblər. Kürd dili və ədəbiyyatı bölməsinin yaradılmasından sonra kürd institutlarının açılması da istisna edilmir.

# Kiçik Asiyanın qırmızı mozaikası

## *Türkiyə və Livan kommunistləri ilə söhbət*

**Aleksandr Batov**

Türk sol hərəkatı rəngarəng və çox çeşidlidir. Qırmızı bayraq altında ən müxtəlif partiyaların belə say çoxluğu insanı çaşdırır. Onların əksəriyyəti doğurdan da kütləvidir, lakin nadir hallarda bir-birləri ilə dostluq edirlər. Hətta Türkiyə barədə sol içərisində belə bir lətifə gəzir ki, orada sol trotskistlərə parçalanıb, ancaq bununla belə, hamı trotskist yox, "stalinistdir". Türkiyə – mürəkkəb ölkədir. Orada "ikinci növ insanlar" kimi qəbul olunan kürdlərin milli istismarı qanunilәşdirilib. Şərqdə dayanmadan Kürd Fəhlə Partiyasının başçılığı altında üsyançılar ilə ordu arasında döyüşlər gedir. Kiprin şimal hissəsi türk ordusu tərəfindən işğal olunub ki, bu da daha bir gərginlik ocağı yaradır. Ölkədə, o cümlədən Osmanlı imperiyasının yenidən qurulmasını sərsəmləyən islamçıların da təsiri böyükdür. Bundan əlavə, ABŞ regionda təsirini möhkəmləndirmək üçün Türkiyədən istifadə edir. ABŞ-ın müttəfiqi və bütün müsəlmanların düşməni olan İsraillə də mürəkkəb münasibət qurulub. Ən müxtəlif və çox vaxt bir-birinə mane olan faktorların çoxluğu, onların adekvat dəyərləndirilməsinin çətinliyi vahid taktikanın hazırlanmasına mane olur.

Türk kommunistləri arasında iki partiya daha çox seçilir – Türkiyə Kommunist Partiyası (TKP) və Əmək partiyası (EMEP). TKP təqribən əlli il əvvəl leqallaşdırılıb (ona kimi kommunistlər qadağa altında idilər), ölkə universitetlərində, gənclər və müəllimlər arasında kifayət qədər güclü mövqedədirlər. Bu partiyanın nəzəri duruşu beynəlxalq kommunist hərəkatlarının mövqeyinə daha yaxındır, hansı ki, ortodoksal hesab edilir. EMEP əməkçi kollektivlərdə, həmkarlar arasında daha güclüdür. İdeoloji sferada xocait xətti ilə gedir, hansı ki, SSRİ-də Stalinin ölümü və Sovet KP-nın XX Qurultayından sonra sosializmin, yerini sosial-imperializmə verdiyi qənaətindədir. TKP və EMEP-dən başqa digər partiyalar da vardır, məsələn, mübarizəsini qeyri-leqal şərtlərdə davam etdirən Şimali Kürdüstan və Türkiyə Marksist-leninist Partiyası (MLKP).

Müəyyən izahdan sonra aşağıdakı materialın mənşəyi barədə danışmaq olar. Oxucuya təqdim edilən müsahibə – oktyabrın ortalarında İstanbulda RKİP (Rusiya kommunist işçi partiyası) nümayəndələri və EMEP rəhbərləri arasında olan söhbətin çevirməsidir. Bu görüş rəsmi danışıq xarakteri daşımırdı və əvvəlcədən hazırlıq olmamışdı. Təsadüfi hadisə ilə Rusiya kommunistlərinin nümayəndəsi Afinadan geri dönərkən bir gün İstanbulda qalmaq fürsəti qazanır və bu boş vaxtı faydalı iş üçün dəyərləndirməmək günah olardı. Söhbət kommunist Evrensel qazetinin redaksiyası yaxınlarındakı açıq kafedə tünd çay eşliyində gedib… Beləliklə…

* * *

**- İndi ölkənin şərqində vəziyyət necədir?**

- Son aylarda sülh şəraiti pozulub. Türk hökuməti kürd üsyançılarına qarşı hücumları bərpa etdi. Kürd Fəhlə Partiyası da eynən cavab verdi. İki tərəfdə də itkilər var.

**- Bununla nəsə etmək olarmı?**

- Hökumətə təzyiq etmək, mümkün olsa, məsələn türk-kürd nümayişləri təşkil etmək olar.

**- Ümumiyyətlə, sizin kürdlərlə əməkdaşlığınız necə davam edir?**

– EMEP leqal kürd hərəkatları ilə əməkdaşlıq edir. Seçkilərdən öncə biz onlarla və digər sol nümayəndələri ilə vahid blok yaratdıq. Seçki nəticələrinə görə bizim blok parlamentdə 36 yer qazandı. O cümlədən, partiya lideri də deputat oldu. Səciyyəvidir ki, bizim siyahıya görə seçilən 36 deputatdan 6-sı hələ də həbsdədir. Buna etiraz olaraq bütün deputatlarımız parlamentin ilk yığıncağına getmədi. Ancaq oktyabrda yeqinki, bu boykot sona çatacaq.

**- Bəs seçkilərdən sonra bu cəbhə dağıldı?**

- Yox. Əksinə, indi yerli səviyyədə konfrans və yığıncaqlarla daha geniş cəbhə yaratmağa çalışırıq.

**- Kürd məsələsinə qayıdaq. Türkiyə sol hərəkatında bu problem əsl əngələ çevirilib. Müxtəlif sol təşkilatların kürd məsələsinə münasibətini necə xarakterizə edərdiniz?**

- Üç mövqe daha çox seçilir. Birincisi – işçi sinfini nəzərə almamaqla, stakvanı kürd milli hərəkatına qoymaq. Belə siyasət sosial-demokratlara xasdır, hansılar ki, çox güman işçi hərəkatları ilə əlaqədə olmurlar. İkinci mövqe – türk kommunist partiyasının (TKP-nin) mövqeyidir. Onlar kürd hərəkatını dəstəkləyir, lakin onlarla əlaqədə deyillər. TKP-yə yalnız inqilabdan sonra kürd məsələsinin həlli mümkündür, kimi bəyanatlar vermək xarakterikdir. Nəhayət, üçüncüsü – bizim partiyanın mövqeyidir, hansı ki, kürd hərəkatının leqal qanadı ilə birləşib. Biz onların anti-imperialist mübarizəsini dəstəkləyir və həm də onlarla birgə işləyirik.

**- Bəs Türkiyə Marksist-leninist Partiyası (MLKP) və onların kürdlərlə işləri barədə nə deyə bilərsiniz?**

- Bu çox kiçik və qapalı təşkilatdır. Onlar Kürd Fəhlə Partiyası ilə əməkdaşlıqdadırlar, özü də silah sahəsində. Düşünürük ki, indiki vəziyyətdə silahlı mübarizə əsassızdır.




**-Siz kürdlərin öz müqəddəratını həll etmək hüququnu dəstəkləyirsinizmi? Burada digər partiyalarla fərq nədədir?**

- Bəli,biz bütünlüklə dəstəkləyirik. Bizdən fərqli olaraq, TKP hesab edir ki, kürdlərin ayrıca dövlət barədə tələbini dəstəkləmək gərəksizdir. Onların mövqeyi ondan ibarətdir ki, SSRİ kimi sosializm üçün təsirli forpost yoxdursa, haradansa kömək gözləmək qeyri-mümkündür, kürdlər vahid dövlət, yəni Türkiyə çərçivəsində mübarizə etməlidirlər. TKP-yə görə, indi milli anti-imperialist hərəkatlar yoxdur, çünki sosialist düşərgə mövcud deyil. Bu partiya fələstinlilərin öz müqəddəratını həll etmə haqlarını tanıyır, lakin kürdlərin isə yox.

Bizim partiya problemin həlli kimi kürdlərə regional muxtariyyət təklif edir, TKP isə deyir ki, bu həll deyil, separatizmdir və imperialistlərin planıdır. Bununla belə, partiya kürdlərin müstəqil olmalarını dəstəkləyir, ancaq TKP düşünür ki, buna qarşı vahid ölkə (Türkiyə) üçün mübarizə aparmaq lazımdır.

**- Əgər millətlərin öz müqəddəratını həll etməsini dəstəkləyirsinizsə, sizin partiya Kosovo barədə nə düşünür?**

- Əlbəttə, bu region üçün ən yaxşı variant Yuqoslaviya idi, lakin o da parçalandı. Birləşmiş ölkə həmişə yaxşıdır. Görürük ki, Kosovonun müstəqilliyi insanlara xidmət etmir. Lakin onlar referendum keçirməklə xalq iradəsi nümayiş etdirdilər. Təbii ki, referendumun keçirilməsi prosesi barədə qınaqlar var. Ancaq yenə də bu, xalqın iradəsidir və onu qəbul edirik. Analoji situasiyada Lenin Finlandiya azadlığını elan edərkən onların öz öhdələrinə buraxmışdı. Əlbət, bunun kimi vəziyyətlər imperializm tərəfindən istifadə oluna bilər, lakin siz insanlara deyə bilməzsiniz ki, imperializm sizdən istifadə edir. Biz onların seçiminə hörmət edirik.

**- Kipr problemi barədə nə fikirləşirsiniz?**

- Kipr məsələsinin ideal həlli – iki zonalı vahid dövlətdir. Yunanıstan, Türkiyə və B.Britaniya oradan çıxmalıdırlar, həm hərbi, həm də siyasi təsir baxımından.

**- AKEL (Zəhmətkeş xalqın mütərəqqi partiyası) tərəfindən Kipr məsələsinin Avropa İttifaqının (Aİ) kömәkliyi ilə həlli ümidləri nə dərəcədə düzgündür?**

- Bu qeyri-real fantaziyalardır. Almaniya və Fransa öz şəxsi maraqlarına əsaslanırlar, Aİ-na də məhz onlar rəhbərlik edir.

**- Partiyanız Türkiyə və İsrail arasında bu yaxınlarda alovlanan münaqişə barədə nə fikirləşir?**

- Biz Fələstinin müstəqilliyini dəstəkləyirik. Türk hökuməti də eynilə bunun tərəfdarı olduğunu elan etdi. Biz insanlara bu iki dəstək arasındakı fərqi başa salmaqda çətinlik çəkirik. Axı hökumətin bu barədə başqa planları var, regionda dominantlıq etmək istəyir. ABŞ Türkiyəni dəstəkləyir, onlarsa İsraili. Üzdə ziddiyyətlidir. Ərəblər üçün Ərdoğan (Türkiyənin baş naziri) əsl qəhrəman oldu və bununla belə onun əsl üzünü tanımaq olmur. O deyir ki, problem əslində İsraillə deyil, Netanyahu hökuməti ilədir. Bundan başqa, AKP-nin (Ədalət və İnkişaf Partiyası) güclü antisemit meylliyi var. Türk cəmiyyətində də bu təsir güclüdür.

**- Yeri gəlmişkən, Yaxın Şərqin bir çox kommunist partiyaları ümumiyyətlə İsrail dövlətinin mövcud olma haqqını tanımırlar. Bu barədə nə deyərdiz?**

- Əgər İsrail dövlətini tanımasaq, onda yahudiləri hara edək? ABŞ-a? (gülür) Biz ərazidə iki dövləti sxemin tərəfdarıyıq: həm yəhudi, həm də Fələstin torpaqlarında-ərəb.

**- "Ərəb baharı" adlandırılan hadisələri necə qiymətləndirirsiniz?**

- Bütün region- Yaxın Şərq və Şimali Afrika son dərəcə qeyri-stabildir. Nəzərə almaq lazımdır ki, müstəmləkə keçmişi sayəsində Şimali Afrikada sərhədlər süni olaraq çəkilib və bu da millətlərarası münaqişəyə səbəb olub. Millətlər və tayfalar bir-biriləri ilə dalaşır, baxmayaraq ki, onlar hamısı ərəbdirlər. İsraildə isə bildiyiniz kimi etirazlar yüksəlib. Bunlar həm yəhudi, həm də ərəblərdir – onlar öz problemlərini özləri həll etmək iqtidarındadırlar.

Qafqaz, Əfqanıstan, Balkanlar… Hərdən bizə elə gəlir ki, biz böyük regional və hətta dünya müharibəsi kandarındayıq.

* * *

Rusiyalı həmsöhbət EMEP-in bütün mövqeləri ilə razılaşmadı. Xüsusilə də, kürdlərin öz müqəddəratını həlletmə haqları barədə olan qarışıqlıq Kosovo sualını doğurdu, hansına ki, türk yoldaşlar çox zəif cavab verdilər. O cümlədən, İsrail hökuməti haqqındakı suallar da maraq oyatdı. Növbədə isə bu görüşdən öncə Beyrutda baş verən söhbətdən bir fraqmentdir (Qeyd edək ki, indi həmin adam sərhəd yaxınlığında İsrail hərbçilərinin gülləsinə tuş gəlib və xəstəxanada yatır).

**…Livan kommunist partiyası İsrailin kommunist partiyaları ilə hər hansı bir əlaqələr qurubmu?**

- Yox. Amma bəzi beynəlxalq tədbirlərdə görüşürük.

**- Niyə belə?**

- Bir neçə səbəbləri var. İlk növbədə, qanunən olaraq onlarla əlaqə yarada bilmərik. Livanla İsrail müharibə şəraitindədirlər və düşmən ölkə ilə hər hansı bir münasibət izlənilir. İkincisi, bu siyasi nöqteyi nəzərdən faydasızdır. Bildiyin kimi, bizim ölkədə islamçıların təsiri çoxdur, xüsusilə də "Hizbulla"nın. Kommunistləri isə sevmirlər və əgər biz hər hansı bir İsrail təşkilatı ilə, hətta İsrail KP ilə belə açıq əlaqələrə girsək, bizi düşmən kimi qəbul edərlər. İslamçılar xalqı kommunist partiyasının üzərinə qaldırarlar. Və nəhayət üçüncüsü, İsrail KP ilə fikir ayrılığı var.

**- Nə kimi?**

- Birincisi, elə İsrail dövlətinin mövcudatı barədə. Biz bu dövlətin mövcud olma haqqını tanımırıq.

**- Bəs yaxşı, onunla nə etməli? İsrailin yerində nə olmalıdır?**

- Birləşmiş Fələstin olmalıdır. Burada iki – ərəb və yəhudi – dövlətin olması bizim şəraitdə dalana gətirib çıxarır, ona görə də sosializmin qalib gəlməsə, bu ölkələr manipulyasiya üçün imperialistlər tərəfindən istifadə olunacaqlar. Bu səbəbdən gələcək yalnız fələstinlilərin yaşayacağı vahid sosialist Fələstindədir. Çünki, axı həm yəhudilər, həm də ərəblər fələstinlidirlər.

**-Yeganə fikir ayrılığı bundadır?**

- Xeyr, problem həm də dövlətlər arasındakı müharibədədir. Bizə görə, nə qədər çox İsrail əsgərləri ölsə, o qədər yaxşıdır. İsrail KP üçün isə əksinə. Onlar öz dövlətlərinin məğlubiyyətlərini istəməzlər axı!

**- Bolşeviklər nə vaxtsa istəyirdilər… "Əgər siz İsrail dövlətinin mövcud olmasının əleyhinəsinizsə, o zaman sual çıxır: siz yahudilərin öz müqəddəratını həll etmə haqqını tanıyırsınızmı?**

- İndiki vəziyyətdə bu hiyləgərlik olardı. Yəhudilər bir millət kimi Fələstini çoxdan tərk ediblər. Yalnız XIX əsrin sonunda Fələstinə qaçqın axını başladı. Nüfuzlu təşkilatlar bu torpaqları satın alıb süni şəkildə bütün dünyadan yəhudiləri bura köçürdülər: "Bu da millət!" deyə bilmək üçün! Bu təcrübə hələ də davam etməkdədir. Fələstin torpaqlarında sakinləşmə orada möhkəmlənmək məqsədi gözləyir, sonradan buranın İsrailin ayrılmaz hissəsi olduğunu elan etmək üçün.

* * *

Bu material qətiyyən Yaxın Şərq sol hərəkatının tam təsvirini vermək iddiasında deyil, ola bilər ki, hətta cavabdan çox sual yaradır. Bununla belə, ümid edirik ki, bu söhbət heç olmazsa regionun milli hərəkatlarında mövcud olan mürəkkəb proseslər və müxtəlif ölkələrin kommunistlərinin baş sındırdığı digər məsələlər barədə ilkin təxmini təəssürat yaratmağa kömək etdi. Bütün bunları heç bir mötəbər KİV-nin xəbər lentlərində tapa bilməzsiniz. Elə ona görə də kimdəsə elə təəssürat yarana bilər ki, beynəlxalq kommunist hərəkatı yoxdur, tükənib. Amma bu elə deyil. Verilən materialda sadəcə səthi olaraq böyük və arasıkəsilməz işin bəzi aspektləri verilmişdir, o iş ki, zəmin hazırlayaraq dünyanın kökündən yenidənqurulması məqsədini qoyub.

***Tərcümə: Nigar Ərəbli, http://solfront.org***

# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***"Media forum" saytı tarixçi alim Cəmil Həsənlinin "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)" araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən sayımızda**

N.Nərimanovun bu məzmunda məktubları mərkəzin ona etimadını günü-gündən azaldırdı. Bakıda onun fəaliyyətini çox diqqətlə izləyən fövqəladə komissiyanın xüsusi müvəkkili Lander 1920-ci ilin iyul ayının 19-da Krestinski, Menjinski, Dzerjinski və Leninə göndərdiyi gizli teleqramda xəbərdarlıq edirdi ki, "Azərbaycanda müstəqilliyə güclü meyl var. Bu təhlükəli siyasət - Nərimanovun rəhbərlik etdiyi sağ millətçi qanadın siyasətidir".

Azərbaycanla Ermənistan arasında yaranmış ərazi mübahisələrinin dərinləşdiyi və Ermənistanın Rusiya tərəfindən himayə edilməsinin 10 avqust müqaviləsindən sonra açıq müstəviyə keçdiyi bir vaxtda Nəriman Nərimanovun təkidi ilə AK(b)P MK Siyasi Bürosu 1920-ci ilin avqust ayının 26-da Əliheydər Şirvaninin Qarabağ və Zəngəzur üzrə Azərbaycanın fövqəladə komissarı, Armenak Karakozovun isə onun müavini təyin edilməsi haqqında qərar verdi.

Nərimanov əvvəlcə daha təcrübəli və nüfuzlu partiya işçisi sayılan Soltan Məcid Əfəndiyevi Qarabağ və Zəngəzur üzrə fövqəladə komissar təyin etmək istəyirdi, lakin avqustun 26-da keçirilən AKP MK-nın Təşkilat Bürosunun iclasında S.M.Əfəndiyevin təyinatından imtina edilmişdi. N.Nərimanovun narahatçılığı onunla bağlı idi ki, Qarabağı işğal edən Sovet Rusiyasının bolşevik ordusu müsəlman əhalisini başdan-başa tərk-silah etdiyi halda bölgənin erməni əhalisinin silahlanmasına göz yumur, bir sıra hallarda bu prosesdə gizli şəkildə iştirak edirdi.

Qarabağa ezam olunmuş Azərbaycan Daxili İşlər Komissarlığının müvəkkili komissar Həmid Sultanova yazırdı ki, fövqəladə komissar kimi Şirvaninin Şuşaya gəlişi inqilab komitəsi sədrinin yeniləşməsindən başqa heç bir əhəmiyyətli dəyişikliyə gətirib çıxarmayıb: "Cavanşir qəzasında Kommunist Partiyası 900 nəfər ermənidən ibarətdir. Belə təşkilat 1917-ci ilin bolşevik inqilabından keçən üç il ərzində heç Rusiyada da yaradılmayıb. Qəzanın Kommunist Partiyası ermənilərdən təşkil olunmuş qarovul batalyonundan silahlı yardım almağa qədər geniş "rəğbətə" malikdir. Bütün partiya silahlanıb və vilayətdə silahın saxlanılması qaydaları haqqında heç bir əmrə tabe olmur. Silahdan söhbət gedən zaman bu təşkilatın üzvləri "biz partiya üzvüyük" deyirlər. Bundan başqa daşnak hökumətinin agentləri tərəfindən idarə olunan bütün dağlıq erməni kəndləri də silahlıdır".

* * *

N.Nərimanovun sərt mövqeyinə və bəzi məqamlarda dirəniş göstərməsinə baxmayaraq Sovet Rusiyası Xalq Xarici İşlər Komissarlığı tərəfindən müəyyən edilən Azərbaycanın gözdən salınması siyasətinə üstünlük verdi. İyulun 20-də Nərimanova göndərdiyi təcili diplomatik teleqramda Çiçerin hikkəli formada yazırdı: "İndiyə qədər nə siz, nə də oradakı kommunistlər bizə izah edə bilirsiniz ki, nə üçün Rusiya qoşunlarının Qarabağı və Zəngəzuru tutmasının əleyhinəsiniz və nə üçün bu ərazilərin Azərbaycana birləşdirilməsini dönmədən tələb edirsiniz. Biz Ermənistanla işlərimizi qaydaya qoymalıyıq. Türkiyə bizə qarşı çevrildiyi təqdirdə hətta daşnak Ermənistanı belə türk hücumuna qarşı bizim ön istehkamımız, forpostumuz olacaq".

RK(b)P MK Siyasi Bürosuna ünvanladığı digər bir məktubunda isə Çiçerin xəbərdarlıq edirdi ki, Qafqazda erməni-azərbaycanlı mübahisələrinə Türkiyənin siyasəti baxımından yanaşmaq lazımdır. O yazırdı: "Erməni-azərbaycanlı mübahisələrinin müzakirəsində mən həmişə göstərmişəm ki, türk siyasəti Qafqazda işğalçılıq yoluna meyl etdiy təqdirdə Ermənistan Türkiyəyə qarşı ön sədd olacaq və bizi müdafiə edəcək".




Məhz buna görə Azərbaycan SSR XXİK-nın 1920-ci il avqust ayının 5-də hazırlayıb Moskvaya göndərdiyi "Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistanla mübahisəsiz ərazilərinin hüdudlarının təsviri" adlı sənəd Ermənistanla Rusiya arasında müqavilə imzalanan zaman ümumiyyətlə nəzərə alınmadı. Bu sənəddə tarixi-etnoqrafik, coğrafi və inzibati dəlillərə əsasən Sovet Azərbaycanının Ermənistanla sərhədləri təsvir edilirdi və bu təsvir kiçik istisnalarla Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistanla olan sərhədlərini özündə əks etdirirdi.

1918-1922-ci illərdəki Rusiya-Azərbaycan münasibətləri haqqında maraqlı kitabın müəllifi R.Mustafazadə haqlı olaraq yazır ki, Sovet Rusiyasının Azərbaycanda mövqeləri möhkəmləndikcə artıq bu sovet respublikası onun ehtiyatlarının və ərazilərinin hesabına Gürcüstanın və Ermənistanın burjua respublikalarını sakitləşdirən və sonuncunun sovetləşdirilməsi üçün əlverişli şəraitin yetişəcəyini gözləyən bolşeviklərin regional siyasətinin özünəməxsus "donor"una çevrilirdi.

1920-ci ilin oktyabr ayının 15-də RK(b)P MK-nın Qafqaz Bürosunun Rəyasət Heyəti Gürcüstan və Ermənistana münasibətdə sülh siyasəti yeritməyin vacibliyini bir daha vurğuladı. Nərimanovun təbirincə desək, "həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanıb və üstəlik, Azərbaycanın ərazilərini alıb. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə edib. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının ağuşuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirib".

* * *

1920-ci il sentyabr ayının 23-də Leninə göndərdiyi gizli teleqramda Ermənistandakı Rusiya səlahiyyətli nümayəndəsi Boris Leqran Azərbaycan ərazilərinə münasibətdə Sovet Rusiyasının niyyətlərini belə müəyyənləşdirirdi: "Hesab edirəm ki, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsindən ehtiyatlanmaq lazım deyil. Birincisi, "Azərbaycanda bizim hərbi və sovet qüvvələrimizin indiki vəziyyətində bu vilayətlər bizə yaxınlığımızda olan Türkiyədə və Təbriz istiqamətində müstəqil əməliyyat aparmaq üçün çıxış nöqtəsi kimi lazımdır" fikri təmiz xülyadır.

İkincisi, Zəngəzur həqiqətən erməni vilayətidir, indi orada bizim hakimiyyət əhaliyə düşmən mövqeyindən yanaşır və hərəkətlərimiz işğal xarakteri daşıyır, xüsusilə Gorus hadisələri zamanı bu özünü daha qabarıq göstərdi.

Üçüncüsü isə, Azərbaycanın ərazi iddiaları ilə razılaşmamaq olmaz, Moskvanın ərazi məsələləri ilə bağlı obyektiv siyasi mülahizələrlə əsaslandırılmış hər hansı qərarı, şübhəsiz ki, Azərbaycan üçün də uyğun olacaq. Qarabağa gəldikdə, onun Azərbaycana birləşdirilməsində təkid etmək olar".

1920-ci ilin oktyabr ayının 24-də Çiçerinə göndərdiyi digər gizli teleqramda Leqran ermənilərlə aparılan danışıqlarda Azərbaycan ərazilərinə münasibətini belə təsvir edirdi: "Ermənilər Naxçıvan və Zəngəzurun onların ərazisi kimi tanınmasını qəti şərt olaraq qoyublar. Mən göstərdim ki, Azərbaycansız bu məsələ həll edilə bilməz və yalnız Ermənistan Qarabağa olan iddialarından imtina etdiyi halda biz bunu Azərbaycanın qarşısında qoya bilərik. Ermənilər razılaşdılar, uzun müzakirələrdən sonra, kiçicik şərtlərlə Qarabağdan imtina etdilər".

Lakin bu imtina müvəqqəti xarakter daşıdı və 1920-ci ilin noyabr ayının sonlarında Ermənistanda sovet hakimiyyətinin qurulması ilə Qarabağın dağlıq əraziləri uğrunda mübarizə yeni müstəviyə daxil oldu.

* * *

1920-ci ilin noyabrında bolşeviklərin Dilicanda hakimiyyəti ələ alması və Ermənistanda sovet hakimiyyətinin qurulması Qarabağ probleminin yenidən gündəliyə gətirilməsi istiqamətində kommunistlərə əlverişli şərait yaratdı. Dilican hadisələrindən sonra ermənilər "proletariatın dünya qardaşlığı" ruhunda olan hər cür inqilabi-romantik bəyanatları öz xeyirlərinə yozurdular.

Ermənistanda sovet hakimiyyətinin elan olunması münasibəti ilə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov və xarici işlər üzrə xalq komissarı M.D.Hüseynov Ermənistan İnqilab Komitəsinə təbrik teleqramı göndərdilər. Bu teleqramın məzmunu ilə AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosunun noyabr ayının 30-da keçirilən iclasının qərarında ziddiyyət var idi. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun Ermənistanda sovet hakimiyyətinin qurulmasına həsr olunmuş, dekabr ayının 1-də Bakı Sovetinin təntənəli iclasındakı məlum çıxışı ilə dekabrın 1-də Nərimanov tərəfindən elan olunmuş bəyanatın məzmunu arasında da bəzi ziddiyyətli məqamlar görünür.

Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz hissəsidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılır".

**Ardı var**




**BENZİN KOKULU HAYALİNİZ**

*Tayhan ve Cihat arkadaşlar kendilerini yakmadan önce Dünya Kamuoyuna yazdıkları mektubu benzinli elleriyle yere bırakmışlardı...*

Benzin kokusu geliyordu
Mektubunuzdan.
Polisler verdi bana
Benzin kokulu mektubunuzu.
Bir koku oldunuz...
Gözüme,
Elime,
Ruhuma
Çöktü kokunuz.
Hayaliniz benzin kokuyor
Kokunuz dert oldu bana,
Tayhan, Cihat...

... Ayakta yanan insanlar
ateşten resimler çizdi
Dumanın karşısında;
Bağlılığın, acının resmini,
Öfkenin, özgürlük ihtiyacının resmini.
Dünya böyle gördü Sizi,
Ateşten resminizi.

...Kader mi fırsat tanıdı?
Son nefesinizde
Sokuldum can çekiştiğiniz
Hastane odasına.
Son nefesinizi çektim göğsüme,
göğsüme.
Benzin kokan son nefesinizi.

O gün bu gün
Benzin kokusu gelir
Bal tadan anınızdan.
Aklımı oynatan anınızdan...

*1998.*
*Moskova.*

**TANRIÇAMA**

Ben seni içimde tanrıca kıldım
Ben seni senden de güzel yarattım.
Sen sende ölümlü bir insan idin
Ben senden ölümsüz heykel yarattım.

*24 Kasım 2002.*




**EZ KURDİM**

Xatûn Qazê mêjandime,
Werdê zû-zû hejandime,
Fatê timê ez şûştime,
Sûtê tim ez veşûştime.
Sîsê şirîn maçkirime,
Kewê hêdî eç kirime,
Qaso mêrga gerandime,
Naso ez pir hejandime.
Şêxmûs Egît ez hîmkirim,
Hejar min ra şîret kirin.
Got: - Tu Kurdî, qet bîr meke,
Pêş dijmina xwe mel meke.
Tu Hejar be, tu Şêxmûs be,
Zef xîretî, pir namûs be.
Bigre qedrê heqîqetê,
Nebe dîlê mal dewletê.
Ulim hîn be, bibe zane,
Veke sêrê pir girane.
Firqî neke nav milleta,
Bihebîne erf-edeta.
Nebê ezim piling û şêr,
Vê dinê da tek ezim mêr.
Dewran rûyêm nekenîya,
Daykam helya, daykam zêrya.
Dijmina got: - Bê zimanî,
Ne merivê van erdanî.
Hişmetkar bûm vê ecêbê,
Teng bû min ra temam dinê.
Dinya pêş min bû tarîstan,
Li min hejyan lêv û ziman.
Min got: - Kurdim, eslê min xas,
Daykam dane egît mêrxas.
Kubarim bi Feqî, Xanî,
Guhderz, Rustem hîmêm danî.
Rewşa minin Qazî, Barzan,
Kan-xezneye tew Kurdistan.
Ruh û qelbê min welate,
Mirin, jînam min welate.
Rojên şirîn min tel meke,
Bese, bese, tena minxî,
Îdî nadim, kedam buxî...

**ALA MEYE KESK, SOR Û ZER**

Tim bilind bî, bimilmilî, her gav, her dem,
Bê qezya bî, ji te dûrbin keder û xem.
Şûrê tûj bî, qetkî dilê qetilkara,
Serkevtîyê têxî hemû qulca, wara.

Kurdistanê bixemlîne hebûna te,
Şewqê têxe gund-bajara tîrejên te.
Şerqa navîn daynî hîmê aşîtîyê,
Navê Kurda eyan bikî tew dinyayê.

Virha şûnda, pejmûr nebî, neçilmisî,
Bin pîya da pêpez nebî, nebinisî.
Serfinyaz bî, bimilmilî bê qal, bê ceng,
Pêş neyara zexm û zor bî, bibî liheng.

**XEWNÊ DA**

Îşev dîsa min xewnê da seyran dikir Kurdistanê,
Halî sêfîl, rastî min hat keça Kurde teke-tenê.
Ça qayde bû, min silav da, ewê vegirt silav Kurdî,
Dewsa eşqê min vê carê pêş çavên xwe zor ecêb dî.
Baqê gula destê wê da, dimeşîya ber guristan,
Bîna xwîne gula dihat, dikewgirîn ewir-esman.
Rewşe heznî, ceve hêsir, bisk û tûncik bibûn xirav,
Bijang-buryê bê kil-kilçik, çilmisî bû dêmê alav.
Fîno-qotik ne li sêrî, reş kezî wê komkiri bûn,
Kîskê dermîn milê wê da, çek-sîlahê herbê lêbûn.
Beden li min bû telte bûz, xuydanekê ser min danî,
Dil tevizî, qelb şewitî, civyan ser min deşt û banî.
Mil-çoka da qudûm nema, ez lerizîm ewê demê,
Dinya pêş min bû hebsa sar, dilêm kete keder-xemê.
Beden hejya, ziman zêrya, lêva kirin gazî-hewar,
Ka koşk-sera, xasbaxçê ter, kê hedimand, kê da qirar?
Ka def-zurne, zilamêd geş, çît û perdê, êla Kurdan,
Emir îro wan naxaze, kîne bi derd, mîna Kurdan?
Dîroka te pir qedîme, kulê dilan kûr zêde ne,
Dicle, Firat, Musûl, Kerkûk, ew kubarî rewşa te ne.
Dayka te da Şêxmûs, Qazî, him Barzanê dinê meşûr,
Şêr Sulheddîn Erebistan tew azakir bi zora şûr.
Feqî, Xanî tacên zêrin, birê tene Apo, Goran,
Gelo çima tew Şerqa kal hîşt Kurdistan bibe wêran?..




**GET GÜLÜM...**

Olub arzuların əlində əsir.
Qəlbimi etdiyin xəyanət əzir.
Sənin bu sevgidən qiymətin kəsir.
Get, gülüm, təzədən sevməyi öyrən.

Əlində əlimin izləri isti.
Gələsi yolunu söylə nə kəsdi?
Belə sevməyinə söyləmə bəsdi.
Get, gülüm, təzədən sevməyi öyrən.

Hər addım izində izim göyərər.
Keçmişə baxanda gözün göyərər.
Ölsəm məzarımda sevgin göyərər.
Get, gülüm, təzədən sevməyi öyrən.

İstəyin sevginə kölgə saldısa.
Qulağın qəlbinə hakim oldusa.
Səni bu məhəbbət belə yordusa.
Get, gülüm, təzədən sevməyi öyrən.

Az deyil qarşımda günahın, suçun
Görürəm bu yolun qaranlıq ucun.
Tanrı günahını bağşlamaqcın
Get, gülüm, təzədən sevməyi öyrən.

Könlündə rahatlıq tapasan deyə.
Bağışla söyləyib əl açma göyə.
Qəddini bu günah əyməsin deyə.
Get, gülüm, təzədən sevməyi öyrən.

**GƏLƏ BİLMİRƏM**

Daha nə dönüşün, dönümün qalıb,
Bəxtimiz hicranın nəğməsin calıb.
Daha küçənizdən yolumu salıb-
Sənin görüşünə gələ bilmirəm.

Bu payiz ömrümə sazaq gətirib
Sevinci gözümdən uzaq gətirib.
Həsrətə toy tutub gözdən itirib,
Bir an da ürəkdən gülə bilmirəm.

Gözlərim dost payı sevinc saxladı,
Qəlbimsə əzabdan yuva bağladı.
Ruhum dağ çayı tək coşdu, çağladı,
Gəldiyim yollarla dönə bilmirəm.

Uyuşmaz yaşıma göz yaşı tökəm,
Bacara bilmirəm hücrəmi sökəm.
Dərdin zirvəsində yalqızam, təkəm.
Tanrı hüzuruna enə bilmirəm.

Sığışmir bu köyə ruhum sıxılıb.
Gözümdə virandi haqdan yıxılıb.
Bu hicran odundan yanıb,yaxılıb.
Kül olub bir yolluq sönə bilmirəm.

**MƏN SƏNİ SEVDİM Kİ ...**

Mən səni sevdim ki, hicrindən uzaq
Bir sevgi nəğməsi oxuya bilim.
Ömrümün kədərli ilmələrinə,
Səni naxış-naxış toxuya bilim.

Mən səni sevdim ki, səni sevdim ki,
Yolumun üstünə cıxan olmasın.
Qapıb ürəyimdən alıb sevgimi,
Əliylə köksünə sıxan olmasın.

Mən səni sevdim ki, ölümdən qacıb,
Əbədi dünyaya bir yoldaş olum.
Səni sevmədim ki ziya icində,
Heç nəyi görməyən bağrı daş olum.

Səni sevmədim ki, hər şeydən küsüb,
Tənha ömür sürüm bu qərib kənddə.
Səni sevmədim ki, həsrət toxumun,

**TANRI QİSMƏTİ**

Sən yad ocağına gəlin olası,
Mən başqa bir səmtə üz tutasıyam.
Səni bu ünmandan atıb sahilə,
Özümü bir təhər ovudasıyam.

Sən niyə sevirsən, sən məni niyə,
Nədir içimizdə od tutan ocaq ?
Sənin gedəcəyin soyuq bir ünvan,
Mənisə gözləyən soyuq bir qucaq.

Suçumuz olmadı bəlkə də bizim,
Bəlkə də yolumuz haçalanmadı.
Gizli sevdamızın aşkar siması,
Bəlkə yad əllərlə parçalanmadı.

Bu gizli görüşlər şirinliyini,
Sevgisiz ünvana aparmaq çətin.
Bizim bu sevdamiz nəyi dəyişər ?
Əgər ayrılıqsa Tanrı qismәti!

**NƏ VAR Kİ ...**

Səndən sonra yaşamağım hədərdi,
Əzablarım son günümə qədərdi.
Xatirəmiz ayrılıqdı kədərdi,
Xatirəsiz ayrılığa nə var ki.

İlk görüşdən duyğularım od oldu,
Özgə adın adım üstdə ad oldu.
Doğmalığın yaxınlığın yad oldu.
Yad olmasan yaşamağa nə var ki.

Bu həsrəti çəkəmməzsən daş oldun,
Mən həsrətə, sən sevincə tuş oldun.
Gözdə deyil ürəyimdə yaş oldun.
Gözdə olsan ağlamağa nə var ki.




**GƏLMİŞƏM**

Gəldiyim yol qısa deyil, uzun yol,
Mən o yolu gəzə-gəzə gəlmişəm.
Kol-kos olub o yollarda sağ-sol,
Gül-çiçəyi üzə-üzə gəlmişəm.

Gah yollarda boran olub, qar olub,
Bəzən geniş, bəzən yollar dar olub.
Bağda əkdiklərim alma, nar olub,
Qocalmağa hələ təzə gəlmişəm.

Hələ fırlanmayır göydə ələyim,
Başıma dolanır olan mələyim.
Olmayıb kimsəyə misqal kələyim,
Tanrıma güvənib məzə gəlmişəm.

Həqiqətdir, olubdur göz dəymələr,
Göz dəyənlər tezcə yollarda mələr.
Gözümlə görmüşəm nələr var, nələr,
Bir dəfə dəymişəm, gözə gəlmişəm.
Bircə anda Zülfiyyənin gözləri,
Yıxdı Etibarı, o şorgöz pəri.
Yaman imiş gözbazların hünəri,
Söyləməyə indi sizə gəlmişəm.

Nəriman Əyyubam, hövsələm geniş,
Belə xasiyyəti etmişəm vərdiş.
Məni qorxutmayır nə küy, nə təşviş,
Nadanlar gözünə nizə gəlmişəm.

*12.06.2010*

**ŞÜKÜRLƏR OLSUN**

Yoxsul olmasaydım, insan olmazdım,
Şükürlər olsun ki, yoxsul olmuşam.
İnsan olmasaydım, dostcan olmazdım,
Şükürlər olsun ki, yoxsul olmuşam.

Gözümlə görmüşəm varlananları,
Varlandıqca daha az qananları,
Var qudurdan pozulan cananları,
Şükürlər olsun ki, yoxsul olmuşam.
Varlanıbdır çıxıb insanlığından,
İnsanlıqdan çıxıb düşübdür candan.
Tamam yoxsullaşıb o qızıl qandan,
Şükürlər olsun ki, yoxsul olmuşam.

Belə yoxsulluğa güvənirəm mən,
Nəyimə lazımdır qoçu cangüdən,
Varlandıqca şişir, məhv olur bədən,
Şükürlər olsun ki, yoxsul olmuşam.

Gözü yaxşı görmür varlananların,
Kapital onları eyləyib harın,
Unudub qeyrətin ,unudub arın,
Şükürlər olsun ki, yoxsul olmuşam.

İndi gördüklərim tamam yaramaz.
Biri biqeyrətdir, biri arvadbaz,
Biri vicdanını itirən utanmaz,
Şükürlər olsun ki, yoxsul olmuşam.

Pozub bəzisini artıq var-dövlət,
Tutub gözlərini zəhmətsiz sərvət,
Bu yerişlə gedir hara bu millət,
Şükürlər olsun ki, yoxsul olmuşam.

Qorxuda saxlayır varlı insanı,
Səksəkədə gəzir o şirin canı.
Qorxutmayır heç nə kasıb Nərimanı
Şükürlər olsun ki, yoxsul olmuşam.

*25.04.2011*

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən sayımızda**

Kürdüstan öz coğrafi mövqeyi və strateji əhəmiyyətinə görə Xarəzmşahların, Azərbaycan atabəylərinin və XIII əsrin ortalarında isə monqol istilalarına məruz qalmışdı.

Beləliklə, Bahar şəhəri əvvəlki əhəmiyyətini itirdi. XIV əsrin əvvəllərində Sultanabad Cəm-Cəmal şəhəri Kürdüstanın mərkəzi oldu. Monqol istilası dövründə müdaxiləçilər yenə də kürd xalqının ciddi müqavimətinə rast gəldilər. «Zəfərnamə» və «Şərəfnamə» də qeyd edildiyinə görə Heqari əmiri İzzəddin Şirvan qalasında Teymurləng ordusuna qarşı inadlı müqavimət göstərmişdir (76, 90; 77, 422).

XV əsrin əvvəllərində Qaraqoyunlu hakimiyyəti başlandı. Foma Metsopski və Bidlisi göstərirlər ki, 1405-ci ildə Qaraqoyunlu Qara Yusif Bidlis əmiri Şəmsəddinə pənah gətirmişdi və Əmir Şəmsəddin ona hər cəhətdən yardım göstərdi (41, 22). Bundan sonra Qara Yusif daha artıq qüvvə toplayıb bir sıra kürd vilayətlərini və Azərbaycanı işğal etdi. Onun ölümündən sonra Teymurun xələfi Mirzə Şahrux 1420-ci ildə Kürdüstanın bir sıra əmirliklərini özünə tabe etdi (108, 447-449).

Kürd xalqı üçün daha ağır dövr Ağqoyunlu hakimiyyəti ilə başlanmışdı. Bu hakimiyyətin ilk nümayəndəsi Bayəndur tayfasına mənsub olan Tur Əli bəy Ağqoyunlu XV əsrin əvvəllərində Teymurun istilalarında iştirak etdiyi üçün Teymur Diyarbəkir əyalətini18 tiyul şəklində ona vermişdi. Odur ki, Tur Əli Türkmən tayfasını həmin əyalətdə mərkəzləşdirdi.

1453-cü ildə Həsən bəy (Uzun Həsən) Amid qalasında (Diyarbəkirdədir) taxta oturdu. O, az müddət ərzində Kürdüstanın bir hissəsini Azərbaycan, Ermənistan, İraq-Əcəm, İraq-Ərəb və Fars torpaqlarını öz hakimiyyətinə tabe etdi. Onun hakimiyyəti dövründə Kürdüstanın bir sıra əmirlikləri də işğal edildi. O, həmin əmirlikləri qarət edir və yandırırdı. Mənbələrdəki məlumata görə Ərzincan vilayətinin əmiri Məlik Xələf müqavimətsiz təslim olmaqla bərabər, 10 batman19 qızıl və 50 batman gümüş verməklə həmin vilayəti məhv olmaqdan xilas etmişdir (43, 241-242).

Həsən bəyin xələfləri zamanında Ağqoyunlu hakimiyyəti zəiflədiyinə görə Kürdüstan yenə də Osmanlı, Misir hökumətlərinin nüfuzu dairəsinə düşmüşdü. Beləliklə, Kürdüstan XV əsrin axırınadək dəfələrlə bir istilaçıdan digər istilaçının əlinə keçmiş və onun iqtisadiyyatı dah da pozulmuşdu. Lakin o dövrlərdə bir sıra kürd əmirlikləri öz müstəqilliklərini saxlaya bilmişdi (76, 240-266).

Uzun zaman davam edən xarici basqınlar və daxili tayfa müharibələri nəticəsində taqətdən düşən bir xalqın-kürdlərin XVI əsrin əvvəllərində Osmanlı və Səfəvi dövlətləri kimi qüvvətli qonşuları var idi. Əvvəldə olduğu kimi, həmin dövrdə də müxtəlif kürd tayfaları arasında əmirlik vəzifəsi və torpaq mülkiyyəti nəsildən nəslə keçən monarxiya sistemli əmirliklərə bölünürdü. Bu əmirliklərin ictimai dayağı tayfa üzvləri hesab olunurdu. Onun iqtisadi əsasını isə torpaq üzərində xırda feodal, xüsusi mülkiyyət forması və bu mülkiyyətə arxalanan istismar üsulu təşkil edirdi. Tayfanın üzvləri əmir üçün müxtəlif mükəlləfiyyətlər daşıyır və onun hərbi səfərlərində iştirak edirdi. Kürdlər arasında feodal üçün hərbi xidmət əsrlər boyu daimi bir peşə şəklini almışdı. Buna görə də kürd əmirləri qüvvətli dövlət qarşısında özünü hərbi xidmətçi, zəif dövlət qarşısında isə müstəqil bir hökmdar kimi hiss edirdi. Bidlisinin qeyd etdiyinə görə kürdlər arasında qüvvətli və sayca üstünlük təşkil edən tayfalar əşirət (76, 18) adlanırlar. XVI əsrin əvvəllərində Kürdüstanda bir neçə qüvvətli və nisbətən müstəqil əşirətlərə təsadüf olunurdu. Bunlardan biri mərkəzi Məraş əyaləti olmaqla, sərəncamında çoxlu kürd əmirləri olan türkmən Əlaəddövlə Zülqədər, digəri isə mərkəzi Sabuçbulaq (Mehabad) olmaqla Mukri tayfasının başçısı Seyfəddin oğlu Sarom idi. Keçmişdə olduğu kimi, həmin əsrdə də əmirlər arasında davam edən daxili vuruşmalar Kürdüstanın siyasi cəhətcə birləşməsinə imkan vermirdi. Bidlisi öz əsərində Kürdüstandakı bu vəziyyəti göstərərək yazır: «Hər biri bir tərəfdə özbaşına mütləqiyyət bayrağı qaldıraraq, sərbəst olaraq dağ zirvəsində daldalanır... Aralarında Tövhiddən21 başqa heç bir mənada birlik yoxdur» (76, 16-17; 103, 450).

Beləliklə, XVI əsrin əvvəllərində hələ siyasi cəhətdən mərkəzləşməmiş kürd əmirləri başqa təcavüzdən özlərini qorumaq üçün qonşuluqlarındakı iki qüvvətli dövlətdən birinə istinad etməli idilər. Sünni məzhəbinə yaxın olan kürd əmirləri osmanlılar tərəfə meyl göstərməli idilər. Lakin kürd xalqı ilə Azərbaycan xalqı arasındakı tarixi döstluq və əməkdaşlıq kürdlərin əksəriyyətində Səfəvilər dövlətinə arxalanmağa meyli artırırdı (22, 7). Çünki kürd xalqı özünü xarici basqınlardan qorumaq üçün Azərbaycan ərazisində təşkil olan Səfəvilər dövlətinə ümid gözü ilə baxırdı. Lakin I Şah İsmayıl Səfəvinin Kürdüstan haqqındakı yanlış siyasəti bu ümidi heçə çıxartdı. Şahın Kürdüstan üzərinə ilk hücumu Savuçbulaq nahiyyəsini qəsb etməklə başlandı.

I Şah İsmayıl 1505-ci ildə Qızılbaş sərkərdələrindən Durmuş xan Şamlu, Əbdi bəy Şamlu, Saruəli Möhürdar Təkəlu, Bayram bəy Qaramanlu və Xulafa bəyin başçılığı ilə Sarom üzərinə böyük ordu göndərdi. Lakin Sarom bəy bu müharibədə qalib gəldi və öz müstəqilliyini qorudu. O dövrün mənbələrindəki məlumata görə həmin müharibədə qızılbaşlar çoxlu itki verdilər və adları çəkilən sərkərdələrdən Durmuş xan Şamlu, Bayram bəy (59, 90) və Xulafa bəy salamat geri qayıtdılar.

«Həbib əs-Siyər» əsərinin müəllifi bu hadisədən bəhs edərkən I Şah İsmayıl Səfəvinin Kürdüstan haqqındakı istilaçılıq siyasətini pərdələyərək yazır: «Sarom Kürdüstan qarətçiləri ilə birlikdə yol kəsməklə məşğul olduğu üçün şah onun üzərinə qoşun göndərdi. Sarom qaçdı və dinsiz kürdlərdən bir çoxları öldürüldü. Şah ordusu böyük qənimətlə geri qayıtdı» (112, 42). Qunabadi qeyd edir ki: «Şah ordusu ilə kürd dilavərləri arasında şiddətli müharibə oldu. Sarom qaçdı, kürdlərin çoxu qılıncdan keçrildi və qan su yerinə axdı» (113, 102).

Bidlisi göstərir ki, «Sarom Qızılbaşların təcavüzündən özünü qorumaq üçün I Sultan Səlim xana tabe oldu» (76, 289).

Bizim üçün Bidlisinin yazdığı daha doğru və düzgün məlumat hesab edilir çünki o, Səfəvilər dövləti ilə kürd əmirləri arasında gedən vuruşmaları öz əsərində dəqiq surətdə qeyd edir və dövrün ziddiyyətlərini müəyyən qədər açıb göstərirdi.

Müasir İran tədqiqatçısı Rza Pazuki22 1507-1508-ci illərin hadisələrindən bəhs edərək Saromın Gürcüstan hakimi olduğunu qeyd edir və 1507-ci ildə qızılbaşlar tərəfindən öldürüldüyünü irəli sürür. Mənbələrə istinadən həmin müəllifin müddəası düzgün deyildir (70, 285).

XVI əsrin əvvəllərində Kürdüstan ərazisinin böyük bir hissəsinə sahib olan qüvvətli hökmdarlardan biri də əvvəldə qeyd edildiyi kimi Əlaəddövlə Zülqədər idi. Bu sülalə 1339-cu ildən 1515-ci ilə qədər Məraş, Əlbistan, Xarput, Amid, Urqe və s. Kürd vilayətlərinin hökmdarı olub, 80 min evdən ibarət olan Zülqədər tayfasına və bir çox kürd tayfalarına başçılıq etmişdir. Bu sülalənin son nümayəndəsi Əlaədövlə, o zaman Kürdüstanı öz nüfuz dairələrinə bölüşdürən Misir və Osmanlı sultanları ilə müdrik siyasət apararaq öz müstəqilliyini qorumaqla bərabər, onlardan maddi istifadələr də edirdi. Məsələn, İskəndər Münşinin yazdığına görə Rum nümayəndəsi onun sarayına gəldikdə, o öz xadimlərindən bir neçə nəfərinə Misir paltarı geydirib Rum nümayəndələrinə deyirdi: «Misir nümayəndəsi gəlib sizin əleyhinizə məndən kömək istəyir.Lakin mən sultanla dost olduğum üçün onların təklifini rədd edirəm» (47, 33). Misir nümayəndəsi gələrkən yenə də eyni vəziyyəti təkrar edirdi. Buna görə də Əlaəddövlə Zülqədər həmişə deyirmiş ki, «iki qızıl quşum vardır, biri qızıl, digəri isə gümüş yumurtlayır» (47, 33).




Beləliklə, onun qüdrət və nüfuzu günü-gündən artır və 70-dən çox kürd əmiri Əlaəddövlə hökumətinə tabe olur. I Şah İsmayıl Səfəvi ilə vuruşmada məğlub olan Ağqoyunlu Sultan Murad 1506-cı ildə Məraş əyalətinə gəlir və Əlaəddövlənin qızı ilə evlənir. Bundan sonra türkmən ordusu ilə Əlaəddövlə ordusu birləşərək böyük bir qüvvə təşkil edir. Bu qüvvədən istifadə edən Əlaəddövlə digər kürd əmirliklərini və o cümlədən Mosul vilayətini də öz hakimiyyətinə tabe edir. Bundan sonra o, Diyarbəkir əyalətini ələ keçirmək istəyirdi, lakin 1507-ci ildə Diyarbəkir hakimi Əmir bəy Mösullu türkmən I Şah İsmayıla tabe olur və buna görə də şah ona xan ləğəbi verir. Sonralar isə Təhmasib Mirzənin lələsi və Xorasan vilayətinin hakimi təyin edir (113, 293). Diyarbəkir qalası hələlik Əlaəddövlənin əlində qalır. O, öz növbəsində Diyarbəkir üzərinə hücuma hazırlaşır. Odur ki, bunu duyan I Şah İsmayıl 1507-ci ildə Əlaəddövlənin üzərinə qoşun göndərdi. Hər iki ordu Əlbistan çölündə üz-üzə gəldi. Üç gün davam edən qanlı vuruşmadan sonra Qızılbaşlar yalnız Diyarbəkir qalasını Əlaəddövlə ordusundan ala bilir.

Dövrün bir sıra müəllifləri həmin müharibədə həlak olan insanların qanından Əlbistan torpağının qırmızı rəngə boyandığını qeyd edirlər (112, 43-45). Əlaəddövlə qalan ordusu ilə Məraş tərəfə çəkildi. I Şah İsmayıl Diyarbəkir əyalətini Xan Məhəmməd Ustacluya tapşırdı. Lakin Diyarbəkir mahalındakı Qara Həmid əmirliyinin hakimi Qayıtmas bəyə23 tabe olmadı və ixtiyarındakı Amid qalasını möhkəmləndirdi. O, Xan Məhəmməd Ustaclu ilə apardığı müharibədə məğlub oldu.

Həsən bəy Rumlu yazır ki: «Təkcə Amid qalasının alınmasında 7 min nəfərdən artıq adam öldürüldü (59, 94). Bu məğlubiyyətdən sonra Qayıtmas bəy Mosullu Məraş hökmdarı Əlaəddövlə Zülqədər ilə ittifaq bağladı. Onların 10 min nəfərlik qoşununa Əlaəddövlə Zülqədərin oğlu Qasım bəy (Saro Qaplan adı ilə məşhurdur) başçı təyin olundu. Qasım bəy 1507-ci ilin qış aylarında Diyarbəkir üzərinə hücum etdi. Bu müharibədə yenə də Xan Məhəmməd qalib gəldi. Qasım bəy və Qayıtmas bəy Mosullu öldürüldü. Beləliklə də, Qara Həmid şəhəri tutdu və qalanı isə Xan Məhəmməd Ustaclu tərəfindən işğal edildi.

**Ardı var**

# Obama Ərdoğanla Suriyadan danışdı



ABŞ prezidenti Barak Obama Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğana zəng edib. Telefon söhbətində Yaxın Şərqdəki vəziyyət, Suriya və İrandakı hadisələr müzakirə olunub. Ağ Evin açıqlamasında bildirilir ki, Türkiyə və ABŞ liderləri demokratiya tələb edən Suriya xalqının çağırışlarına dəstək ifadə ediblər. Danışıqlarda həmçinin, İranın nüvə proqramı ətrafındakı məsələ və Türkiyənin beynəlxalq ictimaiyyətlə İran arasında danışıqlarda vasitəçi kimi çıxış etmə ehtimalı müzakirə olunub.

# Əsədin generalı üsyançılara qoşuldu

## *Mustafa əl Şeyxi Azad Suriya Ordusunun komandanlığında təmsil olunacaq*




Suriya ordusunun şimal bölgəsi üzrə kəşfiyyat xidmətinin rəis müavini general Mustafa Əhməd əl Şeyxin iki həftə əvvəl Türkiyəyə qaçdığı ortaya çıxdı. Bəşər Əsəd hakimiyyətinə qarşı üsyanın başladığı ötən ilin martından bu yana Suriya ordusundan qaçan ən yüksək rütbəli hərbçi olan Əl Şeyxin üsyançı zabitlərin yaratdığı Azad Suriya Ordusuna qatıldığı deyilir.

Ölkənin şimalında silahlı qüvvələrin iki əsas komandanlarından biri olan Mustafa əl Şeyx verdiyi açıqlamasında Azad Suriya Ordusunun Türkiyənin Hatay bölgəsində yerləşən düşərgəsinin rəhbəri, polkovnik Riyad əl Əsədin yanına gəldiyini söyləyib. Əl Şeyx Suriya Milli Şurasının lideri Burhan Qalyunla görüşdüyünü bildirib. "Reuters" agentliyinə danışan general əksəriyyəti sünni müsəlman olmaq üzrə təxminən 20 min əsgərin Suriya ordusundan qaçdığını deyib. Mustafa əl Şeyxi Əsəd rejiminə qarşı silahlı mübarizə aparılması məqsədiylə yaradılmış Azad Suriya Ordusunun formalaşdırılmasına köməklik etdiyini vurğulayıb. Onun sözlərinə görə, əgər 25-30 min əsgər və 6-7 nəfərlik partizan qruplar formalaşdırılsa Bəşər Əsədin əmrindəki hökumət qüvvələrini yarım il ərzində çökdürmək mümkün olacaq. General Suriya ilə Türkiyə arasında elan olunması müzakirə edilən bufer zonanın da Əsəd rejiminə ciddi zərbə vuracağını deyib: "Əgər belə bir şey olsa, Suriya orudusunun bir neçə peşəkar hərbi birləşməsində xidmət keçənlər qaçacaqlar. Bununla da Əsəd rejiminin çöküşü tezləşə bilər".

***Azadlıq qəzeti**, İnformasiya şöbəsi*

# Fransa Senatı Sarkoziyə qarşı

## *Parlamentdə çoxluq təşkil edən sosialistlər "erməni qanunu"na veto qoyacaqlarını bəyan etdilər*



Fransada "erməni soyqırımı"nı inkar edənlərin cəzalandırılmasını nəzərdə tutan qanun layihəsi ətrafında yaranmış ziddiyyət davam edir. Layihənin Senatın Baş Assambleyasında müzakirəyə çıxarılması ərəfəsində Senatın rəhbəri Jan Pyer Bel inkar qanununa müsbət yanaşmadığını bildirib.

Almaniyaya səfəri zamanı jrunalistlərin suallarını cavablandıran Bel keçmişdə qalmış hadisələrlə bağlı qanun layihələrinin Senatda qəbul olunmasını dəstəkləmədiyini söyləyib. Fransız parlamentar sistemində görə Senat sədrinin səs vermə məcburiyyətində olmadığını xatırladan Bel Fransa və Türkiyə arasındakı əlaqələrin inkişafına ehtiyac olduğu bir dövrdə, ikitərəfli münasibətlərin hazırki durumundan narahatlıq keçirdiyini də vurğulayıb.

Bundan başqa Senatdakı radikal solçu senatorların da yanvarın 23-də ümumi müzakirəyə təqdim olunacaq qanun layihənin əleyhinə səs verəcəkləri açıqlanıb. Senatdakı Yaşıllar qrupundan sonra Avropalı İctimai və Demokratlar Birliyi Qrupu (RDSE) da qanuna qarşı çıxacaqlarını rəsmi şəkildə bəyan ediblər. RDSE-dən yayılan açıqlamada deyilir ki, inkar qanunu Türkiyə və Ermənistan arasında münasibətlərin stabilləşməsinə kömək etməyəcək. Ümumilikdə isə Senatda çoxluq təşkil edən sosialistlərin və hətta hakim partiyadan olan bəzi senatorların da qanun layihəsinə qarşı çıxacaqları gözlənilir.

Bu arada Fransa Senatı Türk-Fransız dostluq qrupunun yeni sədr müavini Natali Qulet də "erməni soyqırımı"ni inkar edənlərin cəzalandırılmasını nəzərdə tutan qanun layihəsinə müsbət yanaşmadığını söyləyib. Onun sözlərinə görə, Türkiyə müsəlman ölkə olmasaydı bu haqsızlıqla üzləşməyəcəkdi:"Bu haqsızlığa görə mən də bu qanun layihəsinə qarşı səlib yürüşünə start verəcəm. Oyun hələ bitməyib. Hələ heçnə itirilməyib. Senatda əlimizdən gələni edəcəyik".

Xatırladaq ki, Senatın qanunlar komissiyası aşağı palatada qəbul edilən 1915 hadisələriylə bağlı erməni iddialarının rəddini cinayət sayan qanun təklifini yanvarın 18-də müzakirə edəcək. Hökumətin məclisdə keçən qanun təklifini Senata birbaşa rəsmi olaraq göndərməsindən sonra yanvarın 17-də rəhbərlik divanının toplantısı keçiriləcək. Layihənin rəsmi olaraq Senatın müzakirəsinə çıxarılması isə real görünür. Senat isə layihəni yanvarın 23-də müzakirə edəcək.

***Azadliq.az***

# Ankaradan müstəqil Kürdüstana yaşıl işıq



**Rufiz Hafizoğlu, Trend-in**
**Ərəb xəbərlər xidmətinin rəhbəri**

Bağdad rəsmiləri müharibənin sona çatmasını söyləsələr də, son zamanlar ölkədə baş verən siyasi gərginlik İraqın yeni dəyişikliklərin astanasında olduğunu və ölkənin parçalanmaya sürükləndiyini söyləməyə əsas verir.

İraqda baş verən hadisələrin isə qonşu ölkələrə, xüsusən də Türkiyəyə təsir edəcəyi istisna deyil. Sünni vitse-prezident, Türkiyənin ən yaxın siyasi müttəfiqi hesab edilən Tariq Əl-Haşiminin siyasi arenadan uzaqlaşdırılması, Nuri Əl-Maliki hökumətinə heç bir alternativin olmaması Bağdadın siyasi gələcəyinin bundan sonra tam şəkildə İrandan asılı olacağını göstərir.

Tariq Əl-Haşiminin həbsinə verilən order ilk baxışdan elə bir mahiyyət kəsb etməsə də, diqqətdən qaçan, lakin bir o qədər də önəmli məqamlar var. Bunlardan biri Haşiminin İraqın şimalındakı kürd administrasiyasının ərazisində olması, hələ də məhkəməyə çıxarılmaması faktı və administrasiyanın Haşimini təslim etməyəcəklərini bəyan etməsidir.

Hətta Baş nazir Nuri Əl-Malikinin vitse-prezidentin qaytarılması tələbinə qarşı ölkə Prezidenti Cəlal Talabani "Haşimi mənim qonağımdır, o uyğun görüldüyü zaman və uyğun vaxtda İraq daxilində məhkəməyə çıxacaq", - deyə bildirdi.

Əslində Haşiminin siyasi arenadan uzaqlaşdırılması İran və Maliki hökumətinin maraqlarına xidmət etməklə yanaşı, kürd administrasiyasının da maraqlarına zidd deyil.

Məhz bu səbəbdən Kürdüstan dövlətinin yaradılmasının qəti əleyhdarı olan Haşiminin kürd administrasiyasında sığınacaq tapmasının təsadüfü olmadığını görmək olar.

Artıq Ankaranın regionda real güc olmaq iddiası sirr deyil və o, bu yolun qismən də olsa İraqdan keçdiyini yaxşı bilir. Digər bir tərəfdən, Səddam Hüseyn rejiminin devrilməsindən sonra ölkədə müstəqil siyasət yürüdə biləcək hakimiyyət olmayacağı və İranın Bağdadda artan təsiri, İraqda baş verən hadisələri yaxından izləyən Ankaranın diqqətindən qaça bilməzdi.

Buna görə də, Ankara nəyin bahasına olursa olsun, bu və ya digər şəkildə regionda ciddi başağrısına çevrilən, zaman-zaman xarici qüvvələrin siyasi maraqları üçün istifadə edilən PKK terror təşkilatını məhv etməli, lakin bununla yanaşı, kürd problemini tez bir zamanda həll etməlidir.

PKK terror təşkilatına qarşı üçtərəfli - Türkiyə, ABŞ və kürd administrasiyası arasında mexanizm qurulsa da, bu hələ də öz effektini verməyib. Hətta Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Necdet Özel ölkə mediasına verdiyi açıqlamada kürd administrasiyasının bu məsələyə dəstək vermədiyini bildirib.

Tehran və Ankaranın PKK-ya qarşı birgə hava hücumları təşkil etməsi məsələsinə gəlincə isə, Özel belə bir razılaşmanın mövcud olmadığını bildirib.

Dolayı yolla Ankara PKK probleminin həllində İraqın şimalındakı kürd administrasiyasınınrolunun əvəzsiz olduğunu qəbul edir.

Baş verən hadisələrin fonunda isə Türkiyədə PKK terror təşkilatının məhvinə və kürd probleminin həllinə yönəlik ciddi addımlar atılmaqdadır. Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Necdet Özel ölkə mediasına verdiyi başqa bir açıqlamada PKK-nı məhv edəcəkləri barədə bəyanat verdi.

Türkiyədə kürd probleminin həllinə gəlincə, son zamanlar yenidən gündəmə gələn yeni konstitusiyanın hazırlanması məsələsini digər problemlərlə yanaşı, kürd probleminin həllinə yönəlmiş addım kimi qəbul etmək olar. Lakin Ankaranın kürd probleminin həllinə yönəlik addımları PKK terror təşkilatı tərəfindən heç də birmənalı olaraq yaxşı qarşılanmadı. Belə ki, təşkilatın səhra komandirlərindən olan Sərbaz Pəri "əl -Cəzirə"yə verdiyi açıqlamada, Türkiyədə qəbul ediləcək yeni konstitusiyanın kürd probleminin həllinə yönəlmiş olduğunu qeyd etsə də, Ərdoğan hökumətinin siyasi oyun oynadığını bildirib.

Hadisələri diqqətlə izlədikdə Ankara ilə İraqın şimalındakı kürd administrasiyası arasında tam müstəqil Kürdüstan dövlətinin yaradılması haqqında razılaşmanın olduğunu ehtimal etmək olur.

Ən maraqlı məqam isə bu gün hakim Ədalət və İnkişaf (AKP) Partiyasından olan millət vəkili Cuma İçtenin Kürdüstan dövləti haqqında verdiyi açıqlama oldu.

Millət vəkili "Türkiyə olaraq İraqın ərazi bütövlüyünü dəstəkləyirik. Əgər İraqda bundan sonra da qan töküləcəksə, Ankara buna qarşı olmalı deyil, əksinə bu dövlətin yaranmasına dəstək verməlidir", - deyə bildirdi.

Maraqlıdır, görəsən, Türkiyə sərhədlərində müstəqil Kürdüstan dövlətinin yaradılması Ankaranın maraqlarına xidmət edirmi?

İlk baxışdan, bu dövlətin Ankaranın maraqlarına xidmət etmədiyi düşünülsə də, əslində Türkiyə bu kartdan yetərincə faydalanacaq.

Belə ki, İraqın şimalında müstəqil Kürdüstanın yaradılması ilə Türkiyədə yaşayan separatçı kürdlərin ölkə ərazisində müstəqil dövlət yaratmaq istəklərinin qarşısının alınacağı ehtimal edilir. Çünki Ankara "hər bir millət öz müqəddəratını həll edə bilər" prinsipinə əsaslanaraq, Türkiyə ərazisində ikinci kürd dövlətinin yaradılmasına imkan verməyəcək.

Baş verənlər onu söyləməyə əsas verir ki, Ankara regionda İranın artan təsirinin qarşısını almaq üçün və Türkiyə dövlətinin bütövlüyünü qorumaq məqsədilə İraqın şimalında kürd dövlətinin yaradılması istiqamətində ciddi addımlar atacaq.

www.oxumeni.az

# Mən nə üçün vuruşdum?



**Əvvəli ötən sayımızda**

Ulu öndərimiz Heydər Əliyevin imzaladığı sərəncama əsasən mənim kimi imtiyazlı şəxslərə torpaq və ya ev verilməli idi. Ancaq çox təəssüf ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Abutalıbov Hacıbalanın qəbulunda olduğum zaman o mənim üzümə baxaraq:

- Sənin kimi insanlara Azərbaycanın hər yerində yaşıl işıqdır,- deyərək gəlişi gözəl sözlərlə məni o ki var tərif etdi. Mən onu dinləyərək,-Çox sağ olun Hacıbala müəllim,-dedim. Zəhmət olmasa mənə Ümummilli liderimiz Heydər Əliyevin imtiyazlı şəxslərlə bağlı verdiyi sərəncama əsasən mənə ayrılmış torpaq və ya ev haqqında ərizəmə qol çəkin. İki uşaqla kirədə qalıram.

Ancaq çox təəssüf ki, Abutalıbov Hacıbala mənim ərizəmə qol çəkmədi və mən mənə aid olan imtiyazdan da istifadə edə bilmədim. Bir-neçə ay bundan öncə "Məkan" MTK şirkətindən kreditlə ev götürdüm. Uşağım xəstələnməyənə qədər birtəhər borcu ödəyə bilirdim. İndi isə ödəyə bilmirəm. Əlim hər yerdən üzülüb. Küçəyə atılmaq təhlükəsi ilə üzləşmişəm cənab general.

Pənah Süleymanovun gülümsər yaşıl gözlərinə kədər çökdü. Sifətindəki təbəssüm üzündə dondu. Fikrə getdi. Nə edə bilərdi axı. Ayağa qalxıb, pəncərəyə yaxınlaşdı. Gözlərini qaldıraraq göyə baxdı. Göy üzü tər-təmiz idi. Günəşin parlaq işıqları gözlərini qamaşdırdı. Bir-neçə dəqiqədən sonra təkrar geri döndü. Çöhrəsindəki təbəssüm yenidən qayıtdı.

-Hə Aprel müəllim, mənim bir dostum var. İş adamıdır. Qoy ona zəng edim. Səni darda qoymaz, Azərbaycanın sənin kimi çox oğullarına kömək edib, narahat olma.

Qeyri-adi gülümsəməsi, qəzəbi və gur səsi vardı Pənah Süleymanovun. Üzünə baxan kimi onun əhvali-ruhiyyəsini təyin etmək olurdu. Gülümsəyəndə çöhrəsi təbəssümdən işıq saçır, qəzəblənəndə göy üzünü qara buludlar örtümüş kimi pərdə çəkilərdi üzünə. Qəzəblə danışanda səsində şişək çaxar, ildırım şaqqıltısı guruldayırdı. Bu xüsusiyyətinə görə Pənah Süleymanovdan çoxlarının xoşu gəlmirdi. Çünki xoşuna gəlməyən hər hansı bir səbəbə həmin an da etirazını bildirərdi. Ən maraqlısı o idi ki, hətta otaqlara girdiyi zaman heç kimin diqqətini çəkməyən pəncərədəki jalüzlərə yaxınlaşıb onları səliqə ilə düzəldərdi. Bir dəfə isə tikinti sahəsini gəzərkən mühəndisi yanına çağırıb:

-Ay bala, bu yağış yağan zaman su navalçasından su haraya tökülərək?

Gənc mühəndis bu sualdan özünü itirib:

-Yerə tökülərək Pənah müəllim.

-Ay bala, yerə töküləcəyini mən də bilirəm. Bəs sən bu qapını görmüsən? Bilirsən, bu zirzəmidi. Həmin zirzəmidə isə bizim əsgərlərin yataq dəstləri saxlanır. Su navalçadan töküldüyündə çıçrayaq zirzəmiyə töküləcək. Sən niyə fikirləşməmisən ki, bu navalçanın altında arx kimi balaca bir yer düzəldəsən suyun tökülmə səmtini dəyişdirə bilərdin. Zirzəmi də nəm olmaq təhlükəsindən qurtarardı. İşlərinizdə diqqətli olun. İndi buraxdığınız hər bir cüzi səhv üzündən ziyan çəkə bilərik.

Hər gün bu akademiyanın ərazisində gəzirsən. Tədris korpusuna girəndə başını qaldırıb divarda yazılmış Ulu öndərimiz Heydər Əliyevin sözlərini heç oxumusan? Sualına cavab almayan Pənah Süleymanov sözünə davam etdi. Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Sən də bunu unutma.—deyərək oradan uzaqlaşmışdı.

Ümumiyyətlə orda işləyən hər kəs Pənah Süleymanovu görərkən üst-başını səliqəyə salmağa çalışırdı. Birdən özünün diqqətindən yayınan nəsə Pənah müəllimimn nəzərini cəlb edər. Bəli,Pənah Süleymanov həddindən artıq səliqə sevən, insanlarda düzgünlüyü, işdə ciddiliyi, işə can yandıranları qiymətləndirməyi bilən rəis idi. O hətta üzünə gülüb tərif söyləyən şəxslər üçün:- bunlar "üzə gülən baltalar"dı- deyərdi. Tez qəzəbləndiyi kimi, tez də sakitləşməyi vardı. İndi isə o, Aprel Babayevin düşdüyü bu çıxılmaz vəziyyətdən necə kömək edəcəyini düşünürdü.

Pənah Süleymanov telefonu qaldırıb harasa zəng etməyə başladı. Aprelin eşitməsi üçün selektrin düyməsini basdı.

-Alo, salam Fəxrəddin müəllim. Sizi narahat etdiyim üçün üzr istəyirəm. Bir işim düşüb sizə.

Telefonun o biri tərəfində səs gəldi:

- Buyurun, nə lazımsa qulluğunuzda hazıram.

-Bilirsiniz bizim təhsil ocağında iki müharibədə döyüşmüş və iştirakçısı olmuş qəhrəman müəllim var. "Məkan" MTK tikinti şirkətindən ev götürüb, pul barədə çətinliyi var kömək edə bilərsinizmi?

-Bu nə sözdü Pənah müəllim, əlbəttə. Göndərin yanıma nə lazımsa kömək edərəm. Belə bir Azərbaycanlı oğluna kömək etmək hamımızın borcudur. Ancaq bu "Məkan" MTK-nın rəislərinin qapılarında bircə donuzu əskikdir. İstədikləri məbləğ isə inanın mənə onlar üçün çemiçka puludur. Nə əcəb onlar belə bir alçaq hərəkətə yol verirlər. Belələrinə indi gəl azərbaycanlı de görüm? Necə deyəsən? Millətin üz qarasıdır bunun kimilər. Pul gözlərini tutub. Nəfisləri Həzrət Abbasın qılıncından da itidir. Araya dərin bir sükut çökdü. Sonra telefon xəttindən təkrar səs gəldi.

-Siz narahat olmayın Pənah müəllim. Göndərin mənim yanıma həmin yoldaşı. Bacardığım qədər kömək edəcəm.



- Təşəkkür edirəm Fəxrəddin müəllim . Çox sağ olun. Bizim yoldaşı darda qoymadınız.

-Borcumuzdur,-söylədi Fəxrəddin.

Aprel qulaqlarına inana bilmirdi. Ürəyində, ola bilməz, belə asanlıqla məsələ həll edilə bilməz axı.

Pənah Süleymanov Aprel Babayevə yaxınlaşdı gülümsəyərək əlini uzatdı:

-Hə Babayev sağ ol. İşin avand olsun. İndi get Fəxrəddin müəllimin yanına. Sürücüm səni aparacaq. Əminəm ki hər şey yoluna düşəcək.

Fəxrəddin müəllim sözünün üstündə durdu. Aprel Babayevin yükünü yarısını öz üzərinə götürdü. Aprel Babayev "Məkan" MTK rəhbərlərinə pulun bir hissəsini də verdi. Ancaq onlar istehzahla gülərək:-bu nədi? Biz pulun hamısını istəyirik, ay iki müharibə veteranı, anladın.-deyərək irişə-irişə gülüşdülər. Hanı səni qoruyan dövlətin ay imtiyazlı şəxs? Aprel başını aşağı dikib susurdu. Nə desin axı. Qəzəbindən qıp-qırmızı pörtmüşdü. Ağdərədə günlərlə meşənin içində, dağın üstündə çörək əvəzinə buzbağlamış itburnu yeyib, qar suyunu əridib içib, sağ qalıb. Kaş öləydi. Düşmən gülləsinin qabağında əyilməyən başı indi öz qanı, canından olan Azərbaycanlı vətəndaşının qabağında sinəsinə əyildi. Bu cür Azərbaycanlı adına layiq olmayan simasızların önündə mənəviyyatını alçaldılıb, öldürülməyini görməyəydi. Ancaq ailəsi və balalarına görə susmağa məcbur idi.

Aprel Babayev bir-neçə dəqiqədən sonra başını qaldırıb pörtmüş halda:-mənə bir az da vaxt verin.-söylədi. Onlar çox böyük minnətdən sonra ona:

-Al bu sənədə qol çək.-deyərək əlində olan kağızı Aprelə uzatdılar. Hər ay beş yüz manat ödəyəcəksən. İyunun axırınacan qalan pulu ödəməsən evdən çıxacaqsan. Öz xoşuna çıxmasan. Məcburi zor gücünə çıxardacağıq.

-Axı mənim aldığım maaş elə 500 manatdır. Bəs balalrımı nə ilə dolandırım?

-Ha, ha, ha. Daha bunun bizə heç dəxli yoxdur. Biz nə bilək. Get bu sualı Prezidentinə ver.




Aprel Babayev kağızı imzaladı. Bir-neçə gündən sonra isə gəlib Aprel Babayevin işığını kəsdilər.

Aprel Babayev komendanta:- işığı qoş, balalarım xəstədi.-dedi. Onun eşitdiyi cavab isə çox ağır oldu. Susdu. Sədrəddin:

- Ailəmi istə verim. Ancaq işığ və qazı qoşa bilmərəm. Aprelin ayaqları yerə mıxlandı. Bir anlıq eşitdiyi cavab onu sarsıtdı.

Qarabağ döyüşlərində ölümlə üz-üzə qalarkən, səngərdə olduğu zaman piyadanın(PDM) döyüş maşını üstündən keçdiyi vaxt sarsılmayan igid, belə cavabı eşitdikdə dəhşətə gəldi.

Necə yəni ailəmi? Axı bizdə ailə müqqədəsdir. Belə sözü o necə dilinə gətirə bildi. Aprel onun gözünün içinə baxaraq:

-Bəs sənin kişiliyin yoxdu?- söylədi.

-Yoxdu,-söylədi Sədrəddin. Mən İlham müəllimin bir sözünü iki edə bilmərəm.

Aprel Babayev bu sözün qarşısında naəlac qalıb şirkətin rəhbərləri ilə əlaqə yaratdı.

Ancaq şirkətin rəhbərlərindən sərt cavab aldı. Borcunu ödəməyincə işıq və qaz qoşulmayacaq.

Hal-hazırda Apreli Babayevin ümidi Allaha qalıb. Sən demə iki balalarının küçədə qalmaq qorxusu müharibənin ağrı-acısını çəkməkdən daha çətin və ağır imiş. Namərd dünya. Mərdi qovmamışdan namərd etdin. Tək canı olsaydı Aprel Babayev qorxmazdı, susmazdı. İndi isə hər an balalarının küçədə qalmaq qorxusu içində yaşayır. Azərbaycanın igid oğlu bu gün öz imtiyazlarından istifadə etmir.

Aprelin 2-si 2011-ci ildə şəxsən mənim yanımda Aprel Babayevin telefonuna yoldaşı zəng vurub, işığımızı kəsirlər, söylədi. Apel bir an içində ayaq üstündə öldü. Mənə baxdı. Mən ona:

-Onların rəisini yığ, özüm danışacam söylədim. Aprel nömrəni yığdı. Mən salam verib özümü təqdim etdim. İlk sualım bu oldu. O uşaqların günahı nədir ki onları soyuqdan dondurursan? Sən də bir atasan. Heç Allahdan qorxmursan? O isə çox təmkinlə:-borcunu ödəsin, mənə nə. Mən isə:

- Borcunu ödəməsə əskiyiniz çıxacaq? Qapınızda bir donuzunuz əskikdir. Verəcək də, qaçmır ki. Uzun söhbətdən sonra, bir həftə icazə verirəm söylədi. Ancaq bir həftəyə qədər pulu gətirməlidir. Gətirməsə evi boşaltsın deyərək ultimatom verdi. Bir-neçə dəqiqədən sonra isə Aprel Babayevə zəng vurub ələ salaraq:

-hm, deyirsən indi İlham Əliyev cibindən çıxarıb pul verəcək sənə?..- deyərək gülür.

MTK-nın rəisləri yadlarından çıxarmamalıdır ki, Aprel kimi oğullar bu gün vətənə lazımdırlar. Hər an özünü Vətəni üçün gülə-gülə ölümün ağuşuna atar. Ancaq...............

"Məkan" MTK-nın rəhbərləri ata deyillərmi? Onlar Azərbaycan torpağını sevən, döyüşən bir oğula cüzi borcu nə üçün keçmirlər görəsən? Əskiklərimi çıxacaq? Bu dünyadan o biri dünyaya heç nə apara bilməyəcəklərini anlamırlarmı görəsən?

Bircə şeyi yaddan çıxartmaq lazım deyil. Belə igid oğullar, canları bahasına səngərdə Vətən torpağını qoruyur ki, "Məkan" mtk-nın rəisləri kimilər, bu gün firavan həyat sürsünlər. Bəs onlar Vətən borcunu nə ilə ödəyəcəklər?

***Tahirə Ağasiyeva***
*06.04. 2011-ci il*

# Hemik û Sînem



Qadir Qaçax

**Əvvəli ötən sayimızda**

Carcar dînatî ya çend kesî ye
Belêheye jîya b'milyonî ye
Jiyanaevrodaxwaza wî ye
Belêhizrawîjenga duhî ye
Çendwêvetirepitirbelwî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ger tebivêtin rizgaryawarî
Ji bo xudê bit hemîoldarî
Jibomilletîdesthelatdarî
Pêtivye herduka zwî jêk vavarî
Rêka serkeftinê l'xo nekey tarî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Astengêtdîrokî peristgehin
J'bo dagîrkeraxoşxwandingehin
Takunuke jî desthelat gehin
Bila cuda kinçendzwîtirb'gehin
Yasa û dîmokratiyet dermangehin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'bo pîr nebûnagencêt vê dinê
Zanîba derman têt b'efrandinê
Dame jîhindserboraêxinê
Belkî j'encama hizirkirinê
Peyda ba derman j'bo nemirinê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Germirovhizreka nwî wergirit
Ji kerbû xoperistyê dabibrit
Ji çavçinokyêxodwîrbigirit
Dadperweriyê b'tinêragirit
Wîdemîbelkîmirovnemirit
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hîngê dê biyepirrbinavûdeng
Nehêlîd'ber xo kevlêb'jehr û jeng
Yê berjewendyataybetya berteng
Çend zwîtirbaştir nekîyedireng
Dêd'çavêt xelkîdabiyepîşeng
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Borîn çend sede û çend sal û serbor
Kitêbêt olî çavanakin kor
Mejîkore d'kind'hêlitneguhor
Kelamçeûqeydadujminêxwînxor
Milletêt nezanpêd'hêlne serşor
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'civakek vemay lipaşketinê
Bîr û bawer hey b'yaduhî b'tinê
Desthelatd'mîntel'neguhartinê
Ger şeş sal mirov fêrbît gotinê
Şêstsal jî divên boneaxiftinê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Dîrokvan d'gel serkeftîl'cengê ye
Rondik ya mirinê û xwîn ya saxyê ye
Hetikberî b'perr, direw bê pê ye
Tarrîtirîndemberê spêdê ye
Peqînencamapengandinê ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'mêje zanay kiryeberhevî
Yêd'zanit d'zanit vêt tu bidwîf bikevî
Nuzanitd'zanithişyarke b'devî
D'zanitnuzanitharîke b'tevî
Nuzanitnuzanitvêt jêbirrevî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mezintirîn tolvekirinl'cîhanê
Da tunemirî ta dinya manê
Bi kar bînîçekêparçehozanê
Yanawazekêmuzîklêdanê
Yandîmenekî ji tablokêşanê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'kesekîte b'vêt b'zanî rastiyê
B'devêpara yandesthelatiyê
Eve ye nîşana zîrekiyê
Dujminê xoji hêrişdariyê
Bêxyeçeperê berevaniyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Pêjanêazadyê j'yasayê ye
Dilgeşîberhemêazadiyê ye
Azadî fêqyêazayetyê ye
Bihayê azadyê jitêgehiştinê ye
Lê pa hemî kes ne j'hejî wê ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ger mirov encamdet efrandinê
Bawerya kevin d'kevîtmirinê
Deselatdêkit di karkirinê
Xelkekîpaldetj' tênegehştinê
Te kafir biketbo j'nav birinê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Bawerya b'hêzûya tijî şiyan
Vêt l'ser van sê stwînabêt danan
Raspardinûdwîfçûnû sizadan
Gerberuvajîevebikarînan
Eve berev paşveçûn û neman
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hevmîrê te bû Memzîndan kirî
Biha dapeyvaBekowê gurrî
Zîn j'daxêtwîda jîn lê vemirî
Evînî l'cotê vîndara birî
Paş her wî b'xobo d'kiregirî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Napilyon peyvateyazêrîne
Ramyaryêmejî heye û dil nîne
Viyan jî çendaciwanûşirîne
Mirov yanaqilyan vîn hebîne
Ya mejîneyûdilheyevîne
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ev rewiştêpênegehiştî ye
Perwerdê destê diktatorî ye
Pirraniya wî berjewendçî ye
Ya j'wîve evepirrzîrekî ye
Eger wenekitji xişîmî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yê destkeft danay pêş azadiyê
Yê b'saxî mirîberl'nişîviyê
Amadeû razîbi serşoriyê
Çinku berwîk d'kevît nizmahiyê
Werd'girît naznavêdardestiyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Gerbigerî tul'dwîfazadiyê
Ya l'kumteçiyayl'bilindahiyê
Ew çicarna êtvêttu biçiyê
B' bilindya serî d'bînî û digehiyê
Nextêwêpêtvîbidî qurbaniyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'bogeniyatiyê xwêçareser
Ger xwê genîbîriştineêkser
Ew xandevayêtxod'kine rêber
Perwerdêtrijêmekadagîrker
B'sanahînabne nîştimanperwer
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ew serpêhatî xoranagirit
Kutir çequwê b'xuh û xwînê bikirrit
Ji bo wê dava herlê dixurrit
Piştî ku ew davb'çequwêdimirit
Çequ bixo serê kutirê d'birrit
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'dinya nezanînê misogere
Xelatê mezinsuqratî jehre
Naznavê fisagursîkere
Eniştaynî nav b'dînatî l'sere
Vekuştna efrandinê yafere
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Zanay nivêsye peyveka êk dêr
Milletsêpişkeasinûzîvû zêrr
Yê j'hersê pişkabîne berbijêr
Pirraniya wan ji b'xo b'xo tênbikêr
Duwêçavlêkersêyê d'nav da qêr
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'bo yekgirtna gelêElmanî
Bismarkîhizra Fîxtey b'kar anî
Pirrjifelsefeyanîştimanî
L'hemberkardînalêt Vatîkanî
Ewbîrb' IncîlaEwrupadanî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'her komelgehênîvawêmêye
Jin rêveberahermalekê ye
J'bozaroyxandingeha êkê ye
Qehreman zana perwerdê wê ye
Dayk pêxemberadilovanyê ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hespê dildaryê her yê bi hêlîne
Kîşwerûderyaj'mêjebirrîne
Netewe û dewlet derbazkirîne
Olûeşîretveqetandîne
Belge Odîb û Şêx Sen'anîne
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê
vîndariya rast wek cêmkekî ye
Pêkve girî ye û pêkvekenî ye
Her êkî çi d'vêt yêdîb'dilî ye
Ger husa nebitberjewendî ye
Her demêtêkçûvînamirî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J' egerakeltorêjengîûdêrîn
Kiçhêştatête firotn û kirrîn
Tirimbêl ûzêrrûqesrbo wêvîn
Hêş d'nav landkê da mar lê têt birrîn
Jinb'ser jinêb'çitevebowê jîn
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mê b'nêrîçicar hêbetî nîne
J'blî ger zanînêrb'wê yêdîne
Bîner jibo vê çendê tijîne
Nêr li berahyamêyagorîne
Girove Hemke û Lase û şahîne
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Evrokedirew şermtêdanîne
Dizîzîrekîûpirraferîne
Serpêçya yasaysiza j'bo nîne
Bêkarî ûgerryan mezinahîne
Yagunehkarî b'tinêevîne
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'cîhananwî mir dabêşavînê
Kes nanalînit j'berwêbirînê
Milletê me hêj l'roja goyînê
Bovînê pitir astengketînê
Bersivtête dan b'fîşek û xwînê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê
Evrovîn vajî ya bêserûber
Ciwanyê ûlawînyêd'kineeger
Zengînîûbinemalîdibindaner
Karbedestîû belgenamepîver
Kesê kes nevêt j'dil bê beramber
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Zana husadikit nivêsînê
Jindêveşêrîtnihênya vînê
Lê xo ranagrit li kerbû kînê
L'dwîv biçî wek zaroyd'kitrevînê
Pişt dê wek kitkê l'dwîv te l' bezînê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Afret û gulcêmkekêxêzanê
Her ji boberdewamiya jiyanê
Ji boteratyêûciwanîû viyanê
Pêtvî d'ket b'pwîtedan û çavdanê
B' dwîfçûn û parêzgarî ûavdanê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Herçendeçerxê bîstû êkê ye
Hevjînîhêşta neb'evînyê ye
Li dwîf lawînî û ciwanyê ye
L'dwîf piledarîû belgenamê ye
L'dwîf mirovkanê û zengîniyê ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hevjîniyarast b'xoşya dilane
Kiç û kurr razî l' dwîf dupeyvane
Lê cihê daxek kwîrûgirane
Çinku eşîrethêşta semyane
Pîrozbahî bi dufîşekane
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

**Ardı var**

# Nêçîrvan Barzanî pêşwaziya Firedun Sinirlioglu kir



Li Hewlêrê Cîgirê Serokê partiya demokrata Kurdistanê birêz Nêçîrvan Barzanî pêşwaziya Şewirmendê Wezareta Derve ya Tirkiyeyê Firedun Sinirlioglu kir.

Di hevdîtineke de rewşa niha ya Îraqê û peyvendiyên heyî yên di navbera Tirkiye û Kurdistanê de û her weha pêşkeftinên dawî yên di warê siyasî yên li Deverê jî hatin nîqaşkirin.

Di berdewamiya vê hevdîtina han de alozî û nakokiyên siyasî yên Îraqê jî hatin nirxandin û her dû alî tekez li ser çareser kirina kêşeyên heyî bi rêyên aştiyane û diyalogê kirin.

Di derbarê çawetiya çareser kirina kêşeyên heyî yên Îraqê de Nêçîrvan Barzanî careke din tekez li ser vê yekê kir ku, rêya herî başya çareser kirina kêşeyên heyî destûra bingehîn û diyalog û jihev fêmkirine.

Di dirêjahiya vê hevdîtina han de peyvendiyên heyî yên di navbera Tirkiye û Kurdistanê de û pêşxistina peyvendiyên han di her warê de jî hate nîqaşkirin û her dû alî tekez li ser bihêztir kirina peyvendiyên han kirin.

# Sebahat Tuncel: Enqere êdî bûye navenda faşîzmê!



Parlementera BDP'ê ya bajarê Stembolê Sebahat Tuncel Hikûmeta AKP'ê da ber topan û got: "Serdegirtina Mala Leyla Zanayê bi awayeke giştî peyamek bû ji bo, siyaseta Kurdan. Enqere êdî bûye navenda faşîzmê." Li gorî Ajansa Nûçeyên a Firatê (ANF), di civînek ya li mala gel a li Londonê de, der barê operasyonên li 17 bajaran pêk hatî de axivî û got:

"Hemû derdê AKP'ê ew e ku weke sala 1924'ê Kurdan derveyî amadekirina destûra bingihîn bihêle. Dê ji bo girtina partiya me jî bikevin nava hewldanan. Tenê astengiyek li pêşiya wan heye, ew jî BDP'ê ye. Ev yek wana bêzar dike, ji ber ku naxwazin Kurdên bi rûmet li hemberî xwe bibînin. Lê êdî Kurd jî ne Kurdên berê ne. Ger Kurd ji siyaseta Enqereyê cuda bibe, dê encamên pir giran ji bo hemû Tirkiyê bi xwe re bîne." Her wiha Tuncel der barê siyaseta AKP'ê ya şerxwaz de jî got ku, pirsa Kurdî ber bi çareserkirinê ve dibe û wiha got: "Tişta ku wana li Tirkiyeyê kiriye, li ber çavane, îcar radibe dersa demokrasiyê dide Rojhilata Navîn. Ger tu ji yeke din re dibêjî zilmê li gelê xwe neke, divê tu jî li gelê xwe zilmê nekî. Erdogan dibêje 'di dema Hikûmeta me de polîtîka ya înkar û tunekirinê rabûne'. Ev yek bi xwe li xwe mirkûrhatin e. Ev yek nîşan dide ku înkar û tunekirin berdewam dike. Mubarek, Esed û Qezafî dostên qenc ên Erdogan bûn. An dê Erdogan xwe biguherîne, an dê tişta hate serê dostên wî, dê bê serê wî jî. Dibe zalim heta demek dirêj li ser desthilatiyê bin, lê dîrok alîgirê bindestan e."

# Aysel Tûglûk banga berxwedanê li gelê Kurd kir!

Hevseroka KCD'ê Aysel Tûglûk bang li gelê Kurd kir ku xwedî li siyasetmedarên xwe derkevin.

Tûglûk li dijê operasyonên demjmêrên vê sibê ku polîsên rêjîma Tirkiyê li 17 bajaran êrîşî partî û saziyên Kurdan kirîn, banga berxwedanê li gel kir û got "Êdî tiştekî ev gel bike nema. Ji ber vê yekê, her kesê xwedî rûmete divê li hemberî operasyonan dengê xwe bilind bike." Tûglûk di nirxandina xwe ya ji Ajansa Nûçeyên ya Dicle DÎHA'yê re kirî, got "Saziyên rewa yên ku di encama têkoşîna gelê Kurd de hatine avakirin hedef hatiye nîşandan. Her kesê ku bi rûmet û zimanê têkoşîna hebûnê dide bûye hedefa vê dewletê. Hewl didin ku bi van operasyonan çavkaniya Kurdan a berxwedanê



